# İNSANLAR HAQQINDA YAXŞI ZƏNDƏ OLMAQ

Müəllif: Əbdülməlik Ramazani

Tərcümə: Sahib Əsədov



# İNSANLAR HAQQINDA YAXŞI ZƏNDƏ OLMAQ

**Müəllif:**
Əbdül-Məlik Ramazani

**Tərcüməçi:**

Sahib Əsədov

**Mədinə: 2024**

Mərhəmətli və Rəhimli Allahın adı ilə

# Tərcüməçinin müqəddiməsi

Həmd olsun aləmlərin Rəbbinə! Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və şəhadət edirəm ki, Məhəmməd صلى الله عليه وسلم onun qulu və elçisidir.

Hörmətli oxucu! Sizə təqdim olunan bu "İnsanlar haqqında yaxşı zəndə olmaq" adlı kitab 2013-cü il tarixində tərcümə edilsə də, illər sonra kitabın tərcüməsi tam şəkildə yenidən nəzərdən keçirilmişdir. Kitabın tərcümə edilməsinə baxmayaraq, kitaba bir daha nəzər yetirmək zərurəti var idi.

Ümumiyyətlə, bu mövzu bir çox insanların diqqət yetirmədiyi, qafil qaldığı mövzulardandır ki, bir çox hallarda insanlar arasında düşmənçiliklərin baş verməsinə səbəb olur. Müəllif bu kitabda yaxşı zənn haqqında çox gözəl misallar çəkmiş, pis zənn etmək əvəzinə, edilə biləcək davranışları nümunə olaraq oxuculara təqdim etmişdir. Həmçinin sizə təqdim olunan bu kitabda pis zənnin səbəblərinə və müalicəsinə də toxunulmuşdur. Əslində müəllifin kitabın əvvəlində çəkdiyi misallar da elə pis zənnin müalicəsinə aid misallardır. Ümumiyyətlə, kitabın mövzuları iki böyük qismə bölünür: pis zənnin səbəbləri, sonra isə pis zənnin müalicə yolları.

Ümid edirəm ki, bu faydalı kitabça bir çox oxucuların insanlar haqqında yaxşı zəndə olması, digər insanlar haqqında köksünün geniş və salamat olması, insanlar haqqında hökm vermədə tələsməmək, xəbərləri dəqiqləşdirmək və tələsməmək və s. məsələlərdə çox

faydalı olacaq, yersiz düşmənçiliklərin aradan qaldırılmasına edilmiş bir töhfə olacaqdır!

**Yazdı:** Beynəlxalq Mədinə İslam Universitetinin doktorantura tələbəsi Sahib Əsədov.

*Səudiyyə Ərəbistanı. Mədinə şəhəri.* *Tarix: 2024.04.11*

# Müəllifin Müqəddiməsi

Həmd olsun aləmlərin Rəbbinə! Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və şəhadət edirəm ki, Məhəmməd صلى الله عليه وسلم onun qulu və elçisidir.

İnsanlar yaşadıqları bu keşməkeşli həyatda bir-birlərilə kontaktda olurlar. Bu da bir kəslə münasibət qurmaq və onunla münasibətin qurulması üçün, onlardan hər birinin müəyyən bir əxlaqa sahib olmalarını gərəkli edir. İnsanlar daim başqaları ilə qaynayıb-qarışırlar: valideynlər, oğullar, qardaşlar, kasıb, yetim, həyat yoldaşı, qonşu və dostla, işdəki və ya ticarətdəki şərikinlə, kafir və müsəlmanla, bunlardan hər biri və bir çox başqa kəslərlə uyğun olan bir əxlaqla münasibət qurmaq bizdən tələb olunur.

Allah-təala on haqdan bəhs edən ayədə buyurur:

وَاعْبُدُوا اللَّهَ وَلَا تُشْرِكُوا بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَبِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَالْجَارِ ذِي الْقُرْبَى وَالْجَارِ الْجُنُبِ وَالصَّاحِبِ بِالْجَنْبِ وَابْنِ السَّبِيلِ وَمَا مَلَكَتْ أَيْمَانُكُمْ إِنَّ اللَّهَ لَا يُحِبُّ مَنْ كَانَ مُخْتَالًا فَخُورًا

**“Allaha ibadət edin və heç bir şeyi ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz (kölə və kənizlərə) yaxşılıq edin. Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir”.** *(ən-Nisa. 36)*

İnsanların əxlaqi xüsusiyyətləri müxtəlif və fərqlidir. Onların nəfslərinin istəkləri bir çərçivəyə sığmır. Lakin, onların bir-birlərinə olan ehtiyacları qaçınılmaz bir şeydir,

birgəyaşayış tərzi isə az və ya çox buna ehtiyacı var. Buna görə də insanın - başqalarına və özünə zərər vermədən - öz üzərinə düşən öhdəlikləri yerinə yetirməsi və ehtiyaclarını ödəməsi üçün öz nəfsini nəzarətdə saxlamağa və onunla mübarizə aparmağa ehtiyacı vardır.

Yaxşı olardı ki, biz hər birimizdə olan aydın bir əxlaqi çatışmazlığı etiraf edək. Hər bir müsəlmanın bunu öz əxlaq qalasının keşiyində duraraq üç yolla müalicə etməsi münasibdir:

*Birincisi;* **Əgər onun anadangəlmə gözəl bir əxlaqı varsa, buna görə Allaha həmd etsin.** Necə ki Əşəc Əbdül-Qeys رضي الله عنه etmişdir. Peyğəmbər صلى الله عليه وسلم ona demişdir: **"Həqiqətən də, səndə iki xasiyyət vardır ki, Allah o iki xasiyyəti sevir. Yumşaqlıq və təmkinli olmaq".** O şəxs dedi: "Ey Allahın elçisi! Mən özümmü bunları qazanmışam, yoxsa Allah bunları mənə anadangəlmə verib?" (Peyğəmbər) صلى الله عليه وسلم dedi: **"Əksinə, Allah onları sənə anadangəlmə vermişdir"**. O şəxs dedi: "Allah və elçisinin sevdiyi iki xisləti mənə fitri olaraq verdiyi üçün Allaha həmd olsun"[1].

Bax belə, bir həmd ilə Allah insandakı əxlaqı qoruyur və artırır. Çünki, Allah buyurmuşdur:

لَئِنْ شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ

**"Əgər şükür edərsinizsə, sizə olan nemətimi artıraram".** *(İbrahim. 7)*

Həmçinin insan Allaha şükür etməklə özünə edilən tərifə görə nəfsində əmələ gələ biləcək təkəbbürün təhlükəsindən xilas olur. İnsanların çoxu isə özləri

[1] Hədisi Əbu Davud rəvayət etmişdir. No: 5225. Şeyx Albani bu hədisi səhih hesab etmişdir.

haqqındakı zənlərini yaxşılaşdırır və öz əxlaqlarının kamil olduğunu hesab edirlər. Baxmayaraq ki, onun ədəbi özündən deyil, o ancaq tək olan Allahdandır və Allah bu barədə buyurmuşdur:

وَمَا بِكُمْ مِنْ نِعْمَةٍ فَمِنَ اللَّهِ

**"Sizə verilən nemətlərin hamısı Allahdandır".** *(Nəhl. 53)*

*İkincisi:* **Ona yaraşar ki, pis dostlarla qarışmağına görə gözəl əxlaqından nəyi isə zay etməkdən çəkinsin.** Çünki neçə-neçə fitrətlər vardır ki, dostları səbəbilə pisə doğru dəyişilmişdir. Əbu Hüreyrədən رضي الله عنه gələn hədisdə Peyğəmbər صلى الله عليه وسلم buyurmuşdur: **"Kişi öz dostunun dinindədir. Qoy sizdən biri kiminlə dostluq etdiyinə baxsın!"**[2].

*Üçüncüsü*: **Onda hər hansı bir əxlaqi çatışmazlıq varsa, ona iki şeyi etmək gərəkir:**
**1) Rəbbinə yalvararaq ondan əxlaqını yaxşılaşdırması üçün dua etmək.** Allahın elçisi صلى الله عليه وسلم də Allaha bu cür dua edərdi və onun barəsində uca Allah buyurmuşdur:

وَإِنَّكَ لَعَلَى خُلُقٍ عَظِيمٍ

**"Həqiqətən də sən böyük bir əxlaq sahibisən".** *(Qələm. 4)*

İmam Əhməd (6/68) Aişədən رضي الله عنها səhih bir sənədlə rəvayət edir ki, o demişdir: "Allahın elçisi deyərdi: Ey Allahım, yaradılışımı gözəl etdin, əxlaqımı da gözəl et!"[3]. Bu kamil bir duadır, necə naqis ola bilər?!...

---

[2] Əbu Davud 4833-cü hədisdə rəvayət etmişdir, Tirmizi isə 2378-ci. əl-Albani "Səhih hədislər silsilə"sində hədisi səhihləşdirmişdir.
[3] Həmçinin bax: "İrvaul-Ğalil". Albani. 1/115. Səhihdir. (Tərcüməçinin əlavəsi).

**2) Nəfsinə çətin gələn gözəl əxlaqlara öyrəşməsi üçün Allahdan yardım istəməlidir. Bu isə iki yöndən olur: Birincisi – Öyrənmək yönündən;** Çünki, biz etiraf edirik ki, həqiqətən də, biz cahillik ucbatından əxlaqi təzaddan zərər çəkirik. O naqisliyin islahı isə ancaq elmlə tamamlanır. Burada qəsd edilən elm insanların təcrübəsi ilə əldə edilən elm yox, Quran və Sünnədir. **İkincisi – Əməl etmək yönündən;** Bu isə çalışmaq və nəfsi ona təhrik etməklə olur. Bu iki məsələyə dəlil isə Peyğəmbərin **صلى الله عليه وسلم** bir hədisdə elmlə əməli bir arada cəm etməsidir. Budur onun sözü: **"Elm yalnız öyrənməklə əldə edilir, elm isə yumşaqlıqla qazanılır"[4].**

Bu, əxlaq barəsindəki ümumi söhbətimizdir. Amma "yaxşı zəndə olmaq" mövzusu gözəl əxlaqın böyük fəsillərindən bir fəsildir. Bu əxlaqa sahib olan kəs başı dinc, təmiz qəlbli bir kəs olar. Həm də bu kəs dözülməz vəsvəsələrdən və dərindən araşdırmağa gərək olmayan boş sözlərdən uzaqlaşaraq bütün mömin qardaşlarına xeyir istəyər. Əgər bu əxlaq öz sahibindən gizlənərsə, ona pis zənn qalib gələr. Pis zənn bütün insanların nifrət etdiyi bir əxlaqdır. Elə pis zənn səbəbindən Yusif əleyhissalama zülm edildi və o həbs edildi. Ondan daha çox ittiham olunmağa layiq olan kəs isə belə dedi:

قَالَتْ مَا جَزَاءُ مَنْ أَرَادَ بِأَهْلِكَ سُوءًا إِلَّا أَنْ يُسْجَنَ أَوْ عَذَابٌ أَلِيمٌ

**"Qadın dedi: Sənin ailənə pislik etmək istəyənin cəzası zindana salınmaqdan və ya ağrılı - acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?"** *(Yusif. 25)*

Baxmayaraq ki, o, padşahın ailəsinə qarşı heç vaxt pislik etmək istəməmişdi. Qadın ittihamların zənlərlə dolu olan qəlblərdə yaşadığını bildiyi üçün Yusif peyğəmbər

---

[4] Bunu Xətib əl-Bağdadi "Tarix" əsərində (127/9) rəvayət edib və əl-Albani "Səhih hədislər silsiləsi"ndə "yaxşı" (həsən) hesab edib.

haqqında öz ağlına gələni danışmışdı. Elə bu cür pis zənn səbəbindən (Əbu Bəkir) Siddiqin رضي الله عنه qızı Siddiqə (Aişə) anamıza böyük bir iftira atılmışdı. Allah-təala buyurur:

إِنَّ الَّذِينَ جَاءُوا بِالْإِفْكِ عُصْبَةٌ مِنْكُمْ

**“Şübhəsiz ki,** (Aişə barəsində) **yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir”.** *(Nur. 11)* Digər ayədə belə buyurur:

لَوْلَا إِذْ سَمِعْتُمُوهُ ظَنَّ الْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بِأَنْفُسِهِمْ خَيْرًا وَقَالُوا هَذَا إِفْكٌ مُبِينٌ

**“Nə üçün siz bunu eşitdiyiniz zaman mömin kişilər və qadınlar bir-birləri haqda yaxşı fikirdə olub: «Bu açıq-aydın bir böhtandır!» - demədilər?...”** (*Nur. 12)* Həmçinin, pis zənn silahından yararlanan Fironun qövmü Musanın dəvətinə guya onun yalnız onların torpaqlarını ələ keçirməkdən başqa bir şey istəmirmiş kimi iddialarıyla mane oldular. Çünki onlar bilirdilər ki, insanların fitrətində olan vətən sevgisinə görə onlar bu cür ittihama inanacaqlar və zənləri onlara güc gələcəkdir.

Uca Allah buyurmuşdur:

قَالَ الْمَلَأُ مِنْ قَوْمِ فِرْعَوْنَ إِنَّ هَذَا لَسَاحِرٌ عَلِيمٌ • يُرِيدُ أَن يُخْرِجَكُم مِّنْ أَرْضِكُمْ فَمَاذَا تَأْمُرُونَ •

**“Firon qövmünün əyanları dedilər: Həqiqətən, bu, bilikli bir sehrbazdır. O sizi yurdunuzdan çıxartmaq istəyir. Elə isə təklifiniz nədir?”** ***(Əraf. 109- 110)***

Nəfslər dünyəvi rütbələr uğrunda rəqabət aparan olduğu üçün müşriklər – Nuh qövmünün etdiyi kimi - peyğəmbərlərin (Allahın salavatı və salamı onların üzərinə

olsun) dəvətini süqut etdirmək üçün nəfslərilə mübarizəyə həsr etdilər.

Uca Allah buyurmuşdur:

فَقَالَ الْمَلَأُ الَّذِينَ كَفَرُوا مِنْ قَوْمِهِ مَا هَذَا إِلَّا بَشَرٌ مِثْلُكُمْ يُرِيدُ أَنْ يَتَفَضَّلَ عَلَيْكُمْ

**“Qövmünün kafir zadəganları dedilər: “O da sizin kimi sadəcə bir insandır. Sizə böyüklük etmək istəyir”.** *(Muminun. 24)* Onun belə bir niyyəti olmadığı halda ona tənə etdilər.

Bu ittiham onun qövmünün qəlbində öz təsdiqini tapmadı, çünki bunun arxasında pis zənn dayanırdı. Buna görə də peyğəmbərlər öz dəvətlərində din adından istifadə edərək dünyəvi məqsədlərə çatmaqdan uzaq olmuşlar. Onların hamısı öz dəvətlərindən nifrət edilməsinin qarşısını almaq üçün bircə şeyi demişlər. O da Qurani-Kərimin bir başqa ayədə onların sözünü nəql etdiyi kimidir:

وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ

**“Mən bunun əvəzində sizdən hec bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir”.** *(Şüəra. 109)*

Rəbbimiz bu sözü hər bir peyğəmbərin dediyini xəbər vermişdir. Quranda bu ayədən başqa bu mənaya daxil olmaqla on bir ayədən çox ayə vardır. Onların hamısı öz dəvətlərindən pis zənnə səbəb olacaq şeyləri uzaqlaşdırmaq üçün bu sözü demişdilər.

Əgər onlar İslama dəvət etməklə eyni vaxtda hakimiyyəti dəyişdirmək və ya mal-mülk əldə etmək istəsəydilər, haradasa insanlar onları inkar edəcəkdilər.

Bununla da - əsas danışıqları hakimiyyət və xalqların maddi hüquqlarından ibarət olan - inqilabçı dəvətlərin bu gün süqut etməsinin səbəbi bizlərə aydın olur. Çünki insanlar çox tez bir zamanda bu cür (İslama) dəvət edənlərin niyyətlərinin fəsadlı olmasında ittiham edirlər. Bu, Əhli Sünnə və başqalarının dəvətləri arasında ayırdedici amillərdən biridir. Buna görə də bidətçi dəvətlər üzərində təcrübədən keçmiş müşahidələr göstərmişdir ki, onlar hər dəfə Əhli Sünnədən xilas olmaq istədikdə insanlar arasında - xüsusən də hakimlər arasında - Əhli Sünnədən çəkindirməyi təbliğ etmişlər. Bu da onu göstərir ki, onlar hakimiyyətə çatmaq istəyirlər, buna diqqət yetir!

Bir çox insanların yaxşı zəndə olmaq əxlaqından uzaq olduğunu və buna aparan yoldan qafil olduğunu, şəkk və ittiham vadilərindən su içdiklərini gördüyüm zaman istədim ki, müsəlmanlara yaxşı zəndə olmaq əxlaqı ilə ədəblənməyi xatırladım. Hər birimiz bu cür pis əmələ (pis zənnə qapılmağa) düçar ola bilirik. Lakin ola bilsin ki, haqq xatırlatmaq ilə əxlaqi gözəlləşmə baş versin. Aramızda olanların islah edilməsini və qəlblərimizin paklanmasını yalnız Allahdan istəyirik! O duaları eşidəndir!

Hicri 1432-ci il, “Cəmədil-Əxira”. Mədinə şəhəri.

# YAXŞI VƏ PİS ZƏNN

Dinimizin gətirdiyi şərəfli əxlaqlardan biri də insanlar haqqında yaxşı zəndə olmaqdır. Yaxşı zənn etmək yüksək bir əxlaq olub yiyəsinin gözəl bir daxilinin olmasına dəlalət edir. İnsanın gözəl bir daxilinin olmasının əlaməti qardaşları barədə saf düşünmək və köksünün onlar haqqında salamat

olmasıdır. Əgər o, alicənab olarsa və dili də (başqaları haqqında) iffətli olarsa, artıq onun əxlaqının binası tamamlanmış olar. Çünki əgər qəlblər yaxşı olarsa, onun xatirələri də yaxşı olar. Necə ki, əgər bir ağacın kökü yaxşı olarsa, meyvələri də yaxşı olar. Bunun əksi olaraq isə, qəlblər pisliyə əsaslandığı miqdarda pis zənlər meydana gələr.

Gözəl əxlaqlar yaxşı qəlblərin meyvəsidir. Qəlblərdə yer tutan ən yaxşı söz kəlmeyi-tövhiddir (Lə iləhə illəllahdır). O kəlmə ki, o, islaha aparan ən böyük amillərdən biridir. Necə ki, uca Allah buyurmuşdur:

أَلَمْ تَرَ كَيْفَ ضَرَبَ اللَّهُ مَثَلًا كَلِمَةً طَيِّبَةً كَشَجَرَةٍ طَيِّبَةٍ أَصْلُهَا ثَابِتٌ وَفَرْعُهَا فِي السَّمَاءِ * تُؤْتِي أُكُلَهَا كُلَّ حِينٍ بِإِذْنِ رَبِّهَا وَيَضْرِبُ اللَّهُ الْأَمْثَالَ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ * وَمَثَلُ كَلِمَةٍ خَبِيثَةٍ كَشَجَرَةٍ خَبِيثَةٍ اجْتُثَّتْ مِنْ فَوْقِ الْأَرْضِ مَا لَهَا مِنْ قَرَارٍ

“Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (lə ilahə illəllah) kökü yerdə möhkəm olan, budaqları isə göyə ucalan gözəl bir ağac (xurma ağacı) kimidir. O ağac Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar. Pis söz isə yerdən qoparılmış və artıq kökü olmayan pis bir ağaca bənzəyir”. *(İbrahim. 24-26)*

Artıq insanların əxlaqındakı fəlakət daha da artmışdır. Bunun ən böyük səbəblərindən biri o insanların qulaqlarının çirkabları dinləmək üçün pusquya çevirmələri olmuşdur. Bununla da onların qəlbləri pis zənn ilə çirklənmişdir ki, bu da yaxşı zənləri də apararaq yerini xarab şübhələr əvəz etmişdir və bununla da ayrılıq baş vermişdir. Nəticə olaraq, qəlblərə kin-küdurət düşmüş və problem böyümüşdür. Pis zənn məclislərində alçaq kəslər bir araya gələr, o məclisdə

qohumluq əlaqələri kəsilər, qarşılıqlı surətdə insanlara ittihamlar irəli sürülər, qeybəti və söz gəzdirməyi köpənə kimi boğazlarına salarlar!

Neçə-neçə əsassız zənlər olmuşdur ki, qardaşlığın davam etdirilməsinə mane olmuş, aradakı rəhməti və qardaşlığı sərtlik və düşmənçiliyə çevirmişdir. Buna aid çox qəribə misalların da şahidi olmuşuq. Məsələn;

***Birincisi:*** Öz daxilində öz müsəlman qardaşına qarşı pis hisslərin yarandığını görür. Çünki qardaşı onun yanından keçmiş və salam verməmişdir!

***İkincisi isə***: Ona yaxın olan qohumu, tələbəsi və ya yaxşılığı keçmiş hansısa bir kəs tərəfindən toy məclisinə çağırılmamışdır!..

***Üçüncüsü isə:*** Bir kəsdən geri qaytaracağı bir ehtiyacı olan şeyi istəmiş, o da ona ehtiyacı olan şeyi verməmişdir. Nəticədə qəlbi ona qarşı qırılmışdır!

***Dördüncüsü isə:*** Qardaşını sevincli bir gününə çağırmış, o da gəlməmişdir!

***Beşincisi isə:*** Bir qardaşı ona söz vermiş və sözünü yerinə yetirməmişdir!

***Altıncısı isə:*** Naməlum (məchul) bir nömrədən həyat yoldaşına gələn mesaja görə onun irzinə tənə etmişdir.

***Yeddincisi isə:*** Qardaşına zəng edib, o da onun telefonuna cavab verməyib!

***Səkkizincisi isə:*** Ona deyilib ki, filankəs sənin haqqında pis danışıb!

Beləcə, nəticələr uğursuzluqdur. Onu zəhərlənmiş qəlblər ifraz etməli olur.

Amma, ***birincinin haqqı idi ki***, gərək o öz qəlbini bu sözü deməklə rahatladaydı: Ola bilsin, qardaşımın başına bir bəla gəlib və o da bu bəla ilə məşğul olduğuna görə gözü gözümdə, fikri isə ayrı yerdə (dağınıq) olub. Kaş ki mən onun yanında olub ona köməklik edə biləydim!...

***İkincinin haqqı idi ki,*** belə desin: Ola bilsin ki, o məni dəvət etməyi unudub, qoy Allah onun üçün mübarək etsin!...

***Üçüncünün haqqı idi ki,*** desin: Ola bilsin ki, onun həmin şeyə ehtiyacı var...

***Dördüncünün haqqı idi ki,*** desin: Ola bilsin ki, onun qonağı gəlmişdir, ona görə də gələ bilməmişdir və ya buna bənzər bir səbəbdən gələ bilməyib.

***Beşincinin haqqı idi ki,*** desin: Ola bilsin ki, daha mühüm bir işi çıxıb deyə görüşə gələ bilməyib, Allahdan istəyirəm ki, ona xoşagəlməz hal göstərməsin.

***Altıncısının haqqı idi ki,*** desin: Bunu ancaq günah əhlindən olan yaramazlar edə bilərlər.

***Yeddincisinin haqqı idi ki,*** desin: Ola bilsin ki, o yuxuludur və ya məşğuldur və ya unudaraq telefonu səssiz rejimdə qoymuşdur.

***Səkkizincisinin haqqı idi ki,*** desin: Ola bilsin ki, eşidən başa düşmədiyi bir şeyi yaymışdır. Beləliklə də, xəbər verən və haqqında xəbər verilən şəxs barədə pis zənnə düşməkdən qurtulardı.

Kasıb da pis zənlə hərəkət edərək deyər: “Varlı öz təkəbbürlüyünə görə məni maşınında aparmadı”.

Varlı isə bundan yola çıxaraq deyər: “Kasıb mənə yalnız ona bir şey verim deyə salam verdi”[5].

Bundan yola çıxaraq namazda imama tabe olan kimsə sehrlənmiş bir şəkildə deyər: “İmam ölkə başçısına yalnız münafiqliyinə görə dua etdi”.

Bundan yola çıxaraq rəiyyət öz rəhbəri haqda deyər: “O ancaq öz kürsüsünü qorumaq üçün bizə xidmət edib”.

Bundan yola çıxaraq dost öz dostu haqda deyər: “Rəqibim ancaq mənə lağ etmək üçün mənimlə dostluq edib”.

Bundan yola çıxaraq elm tələbəsi öz həmkarı haqda deyər: “O yalnız özünü biruzə etmək üçün mənə müxalif olmuşdur”.

Beləcə, pis zənn və təsəvvürlərin silsiləsi sayılmayacaq qədərdir. Onu yalnız bəndələrin əməllərinə və qəlblərinə bələd olan *Allah* bilir. İnsanların əksəriyyəti həqiqətini bilmədikləri şeylərin izahına gəldikdə yaxşı zənn etməkdə çətinlik çəkir və ona səbir etməkdən məhrum olurlar.

Əziz və Cəlil olan Allah buyurmuşdur:

وَجَعَلْنَا بَعْضَكُمْ لِبَعْضٍ فِتْنَةً أَتَصْبِرُونَ وَكَانَ رَبُّكَ بَصِيرًا

---

[5] Ən pis zənlərdən biri də bir insana dəfələrlə yaxşılıq etdiyin halda, məsələn bir insana on dəfə yaxşılıq edirsən, on birinci dəfə onun sənə işi düşəndə üzrxahlıq edir və ona yardım edə bilmədiyin üçün təəssüfləndiyini bildirsən də, o sənin haqqında pis zənn edir, üzrünü qəbul etməməyi bəs deyilmiş kimi, hələ yardım etməyə borclu olduğun təfəkküründə olur. Təəssüflər olsun ki, bəzi fədakar insanlar haqqında belə düşünənlər də olur. Ona görə də vəfalı bir kimsə ona yardım edə bilməyən kimsənin keçmişdə ona etdiyi yaxşılıqları xatırlamalı və beləcə özünü pis zəndən qorumağa çalışmalıdır. (Tərcüməçinin qeydi).

**“Sizin bəzilərinizi digərlərinizlə sınaqdan keçirtdik ki, görək səbir edə biləcəksinizmi? Sənin Rəbbin Görəndir”. (Furqan. 20)**

# XƏBƏRLƏRİ DƏQİQLƏŞDİRMƏK

Təşviş doğuran xəbərlər qəlbə daha tez təsir göstərir. İnsanların çoxu başqaları haqqında onlara ötürülən xəbərləri qəbul edərkən ehtiyatlı davranmırlar. Onlar tələm-tələsik o şəxsin[6] haqqında hökm çıxarmaq yoluna baş vururlar. Necə ki, o xəbəri yaymağa da tələsirlər. Onlardan çox az bir qismi xəbərlər gəldikdə "xəbərləri araşdırmaq" haqda olan ayəyə[7] əməl edirlər. Xüsusilə də aralarında nifrət və münaqişə olan iki şəxs haqqında xəbərləri çatdırarkən bu ayəyə (demək olar ki) əməl edilmir. Həqiqətən də, nəfs özünə düşən pay haqda xəsisdir deyə, belə halda qarşı tərəfə qalib gəlmək tamahını tələsməmək və Allahdan qorxmaqla tərk etmir.

Əziz və Cəlil ola Allah buyurmuşdur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ جَاءَكُمْ فَاسِقٌ بِنَبَإٍ فَتَبَيَّنُوا أَنْ تُصِيبُوا قَوْمًا بِجَهَالَةٍ فَتُصْبِحُوا عَلَى مَا فَعَلْتُمْ نَادِمِينَ

**“Ey iman gətirənlər! Əgər bir fəsadçı sizə bir xəbər gətirərsə, onu araşdırın. Yoxsa, bilmədən bir qövmə pislik edər, sonra da bunun peşmançılığını çəkərsiniz”.** *(Hucurat. 6)*

Bəzən xəbər gətirən kimsə haqqında xəbər verilən kəsdən daha etibarlı olmur. Ola bilsin ki, xəbər verən doğru sözlü şəxsdir, amma bu dəfə səhv edib və ya həddini aşıb.

[6] Haqqında xəbər verilən şəxs – red.

[7] Bu ayə qarşıda gələn ayədir – (Hucurat. 10).

Yəni o şəxs ya anlamaqda həddini aşıb, ya da həmyaşıdlar arasında olan bir hal kimi asilik edərək həddini aşmışdır.

İnsanların bir çoxu isə bu cür şeyləri haqqında heç nə bilmədikləri halda nəql edirlər. Allah belə bir qövmün məsəlini ifşa edərək buyurur:

إِذْ تَلَقَّوْنَهُ بِأَلْسِنَتِكُمْ وَتَقُولُونَ بِأَفْوَاهِكُمْ مَا لَيْسَ لَكُمْ بِهِ عِلْمٌ وَتَحْسَبُونَهُ هَيِّنًا

**“O zaman siz bunu dilinizə gətirir, bilmədiyiniz sözü danışır və onu əhəmiyyətsiz bir şey hesab edirdiniz”.** *(Nur. 15)*

Bununla yanaşı, o üstün tutulan zənlər həqiqəti ortaya çıxarmaqda fayda vermir. Uca Allah buyurmuşdur:

وَمَا يَتَّبِعُ أَكْثَرُهُمْ إِلَّا ظَنًّا إِنَّ الظَّنَّ لَا يُغْنِي مِنَ الْحَقِّ شَيْئًا

**“Onların əksəriyyəti ancaq zənnə qapılırlar. Şübhəsiz ki, zənn həqiqəti heç cür əvəz edə bilməz”.** *(Yunus. 36)*

Buna görədir ki, arqumentləri olmayan boş zənlər elmi məlumat sayılmır. Uca Allah buyurmuşdur: **“Bu haqda onların zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur”.** *(Nisa. 157)*

Buna görə də Allah çox yerdə zənn ilə elmi[8] bir yerdə qeyd edir, necə ki buyurmuşdur:

[8] Zənn edilən şeyin həqiqətini bilmək – red.

قُلْ هَلْ عِنْدَكُمْ مِنْ عِلْمٍ فَتُخْرِجُوهُ لَنَا إِنْ تَتَّبِعُونَ إِلَّا الظَّنَّ وَإِنْ أَنْتُمْ إِلَّا تَخْرُصُونَ

**“De: Bizə göstərə biləcəyiniz bir elminizmi var? Siz ancaq zənnə qapılır və ancaq yalan danışırsınız”.** *(Ənam. 148)* və buyurmuşdur:

وَمَا لَهُمْ بِهِ مِنْ عِلْمٍ إِنْ يَتَّبِعُونَ إِلَّا الظَّنَّ وَإِنَّ الظَّنَّ لَا يُغْنِي مِنَ الْحَقِّ شَيْئًا

**“Halbuki buna dair heç bir elmləri yoxdur. Onlar, sadəcə olaraq, zənnə qapılırlar. Zənn isə əsla həqiqət ola bilməz”.** *(Nəcm. 28)*

Allah bizi bəzisi günah olan zənnə düşməməyimizdən ötrü çox zənn etməkdən çəkinməyimizi əmr edir. Bu barədə isə buyurmuşdur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ

**“Ey iman gətirənlər! Çox zənnə qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır”.** *(Hucurat. 12)*

Bunda məqsəd isə müsəlmanların irzləri haqda diqqətli olmaqdır. Çünki Allah möminlərə bunun (zənnin) çoxundan üz döndərmələrini, yalnız bəzisinə düçar olmamaları üçün əmr etmişdir.

Əbu Suud رحمه الله öz təfsiri olan “*Səlim qəlbi Qurani-Kərimin üstünlüklərinə yönəltmək*”adlı kitabında bu ayənin[9] təfsirində deyir: “Hər bir edilən zənnin hansı qəbildən

[9] Az öncə qeyd olunan

olduğu bilinənə qədər bir çox qaranlıqda qalan məqamlarda ehtiyatlı və diqqətli olmaq vacibdir”.

İnsanlarla münasibətdə və haqlarında hökm vermədə ədalətli olmağı ən çox tərk etdirən səbəb gələn xəbərləri pis zənn ilə qəbul etməkdir. Uca Allah möminlərə biri-birləri haqda yalnız xeyir zəndə olmalarını əmr edərək buyurmuşdur:

**لَوْلَا إِذْ سَمِعْتُمُوهُ ظَنَّ الْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بِأَنْفُسِهِمْ خَيْرًا وَقَالُوا هَذَا إِفْكٌ مُبِينٌ**

**“Nə üçün siz bunu eşitdiyiniz zaman mömin kişilər və qadınlar bir-birləri haqda yaxşı fikirdə olub: “Bu, açıq-aydın bir böhtandır!” – demədilər?** *(Nur. 12)* Təfsir alimləri demişlər: “Yəni möminlərin bir-biri haqqında yaxşı zəndə olmaları lazım idi”. Uca Allahın İsrail övladlarına dediyi kimi:

**فَاقْتُلُوا أَنْفُسَكُمْ**

**“Özünüzü (sizdən özünə zülm edənləri) öldürün”.**[10]

Üçüncü xəlifə Zünnureyn Osman bin Əffanın رضي الله عنه ölümünə səbəb olan yalnız onun etmədiyi bir şeydə ittiham edildiyi uydurma bir xəbərə uymaq olmuşdu. Habelə o vaxt ki, qiyamçılar onu hədəf aldılar və etiraz etdilər, onlar məsələni həqiqətindən uzaq başa düşmədə və onun əleyhinə

[10] Musa peyğəmbərin Allahdan vəhy almaq üçün qövmündən ayrılıb getdiyi müvəqqəti zaman ərzində buzovu ilah edinmişdilər deyə, Allah əsil günahkarları özlərinin tanıdıqlarından camaatın özü tərəfindən cəzalandırılması üçün belə əmr etmişdi – İbn Kəsirdən müxtəsər olaraq – red.

hökm verməddə tələsdilər. O isə həmin məsələdə günahsız idi. Sonradan məsələ aydın oldu və geri qayıtdılar.

Sonra isə bir cani gəldi və Osmanın adından uydurma bir məktub yazdı, guya ki, həmin məktubda o öz valisinə əmr etmişdir ki, qiyamçılar geri qayıtdıqları vaxt onları öldürsünlər. Onların öz nəfslərinə tabe olduqları zaman bu yalan xəbər səbəbindən oyuna gəldilər. Elə bu səbəbdən də onu öldürdülər.

Rəvayət edilir ki[11], Əbu Useyd əl-Ənsarinin ağası olan Əbu Səid demişdir: "Osman رضي الله عنه Misirdən gələn heyətin onlara tərəf yönəldiyini eşitdikdə onları qarşıladı. Onlar da onun yola çıxdığını eşidib onun olduğu yerə gəldilər və ona dedilər: "Quranı götür". O da Quranı götürdü. (Onlardan) biri dedi: Yeddincini aç. Onlar Yunus surəsini "yeddinci" adlandırırdılar.[12] Sonra isə bu ayəyə çatana qədər oxudu.

قُلْ أَرَأَيْتُمْ مَا أَنْزَلَ اللَّهُ لَكُمْ مِنْ رِزْقٍ فَجَعَلْتُمْ مِنْهُ حَرَامًا وَحَلَالًا قُلْ آللَّهُ أَذِنَ لَكُمْ أَمْ عَلَى اللَّهِ تَفْتَرُونَ

**"De: "Allahın sizə nazil etdiyi ruzi barədə söyləyin görüm, onun bir qismini haram, bir qismini isə halal saydınız?" De: "Allahmı sizə izn verdi, yoxsa Allaha iftira yaxırsınız?"** *(Yunus. 59)*

---

[11] Bəzzar "Bəhrüz-Zəxxar"da (389), İbn Hibban (6919), Əbu Nuaym "əl-İmamətu və raddu alər-Rafidah" (164) əsərində, İbn Cərir "Tarixür-Rusul və Mülük" (3/390-414) əsərində və İbn Əsakir "Tarixü Dəməşq" (257/39) əsərində rəvayət edir.

[12] Bu cümlə ravinin əlavəsi olmalıdır – red.

– Dedilər: Dayan! Himayən altındakıları necə himayə etdiyini gördünmü?[13] Allahmı sənə belə etməyə icazə verdi, yoxsa, Allaha iftiramı atırsan?

– Cavabında dedi:

– Dayanın bir, tamamlayın[14] (sonra nə demək istəyirsiniz?) Bu cür hadisələr baş vermişdir..... Sədəqə olan dəvələrin qorunmasına gəldikdə isə o zaman ki doğum olub və (sayı) artıb, onun mühafizəsini də artırmışam[15]. Tamamlayın (tam olaraq deyin...)

Yenə dilləndilər və ona başqa ayələri misal çəkərək onu ittiham etdilər. O isə: “Tam (ədalətli) deyin”,- deyirdi. Bu cür hadisələr baş vermişdir. Sonra isə: “Nə istəyirsiniz?” – dedi.

Dedilər: “Sənin əhdini istəyirik”, – beləcə ona şərtlərini yazdılar. O da onlarla razılaşdı ki, o öz üzərinə götürdüyü şərti yerinə yetirdiyi müddətcə ona asilik edərək çətinlik yaratmayacaq və camaatdan ayrılmayacaq.

---

[13] Mətnin ərəbcəsində "حماية الحمى " sözü keçir, müəllif özü bunun mənasını qeyd edərək deyir: - Himəyətul-himə - Bu, bir kəsin otlaq sahəsini heyvandarlıq üçün ayırıb qoruması və başqalarının ora daxil olmasına maneə olması anlamına gəlir.

[14] Burada Osmanın (Allah ondan razı olsun) cavabında işlətdiyi امضه kəlməsi lüğətdə bir neçə məna verdiyi üçün məhz azərbaycancaya çevirərkən bir çox lüğətlərə baxsaq da, cümlədə qəsd olunan və təxmini anlaşılan mənaya uyğun konkret bir kəlmə tapa bilmədik. Əslində, bunu "tamamlayın" kimi də tərcümə etmək mümkün olsa da, o incə məqamın mənasını tam ifadə etmir. Bu sözün mənası haqda Beynəlxalq Mədinə İslam Universitetində hədis müəllimi olan Saleh bin Məhəmməd əl-Amudidən soruşdum, özü şəxsən araşdırıb sözün sinonimini الذى يلي olaraq ifadə etdi, yəni "hansı ki, sonra gəlir" daha qısası burada: "tamamlayın", "dayanın bir", "sonra nə demək istəyirsiniz?" və s. mənaları anlayaraq yuxarıda qeyd olunan tərcüməni verdik. (tərcüməçinin qeydi).

[15] Sonra isə dediyini sadalayaraq bunu əlavə etdi – tərc.

– Sonra yenə onlara dedi: (Daha) nə istəyirsiniz?

– Dedilər: “İstəyirik ki, Mədinə əhli paylanan şeylərdən götürməsinlər”.

– Dedi: “Yox!...Bu mal yalnız ona haqqı çatan vuruşanlar və Məhəmmədin صلى الله عليه وسلم əshabından olan o yaşlılar üçündür”.

Beləliklə, razılaşdılar və onunla birgə Mədinəyə gəldilər. Sonra ayağa qalxdı və vəz edərək dedi:

– Kimin əkin-biçini varsa, qoy onu öz əkininə qatsın. Kimin heyvanı varsa, qoy onu sağsın. Bizdə sizə aid heç bir mal yoxdur, elə deyilmi? Bu mal yalnız onu haqq edərək vuruşanlara və Məhəmmədin صلى الله عليه وسلم əshabından olan yaşlılara aiddir.

İnsanlar[16] qəzəbləndilər və dedilər:

– “Bu, Ümeyyə Oğullarının hiyləsidir”.

Sonra[17] Misirlilər geri qayıtdılar. Onlar yolda olduqları vaxtda bir atlı peyda olaraq gah onlara qarışır, gah ayrılır, sonra bir daha qayıdır, yenidən ayrılır və onları söyürdü. Ona dedilər:

– Sənə nə olub? (Rahat ol) sənə aman veririk, sən burada nə edirsən?

– Dedi: “Mən Əmirəl-Mömininin Misirdəki nümayəndəsinə göndərdiyi elçisiyəm”.

Onu təftiş etdilər və birdən onun üzərindən Osmanın adından yazılmış, üzərində də onun şəxsi möhürü olan,

---

[16] Haqsız yerə tələb etdikləri şeyə görə - tərc.

[17] Ravi sözünə davam edərək Osmana böhtan atılan məqamı rəvayət edir – red.

Misirdəki nümayəndəsinə ünvanlanan bir (yalan) məktub çıxdı[18]. Məktubda belə yazılmışdı: **"Onlar çarmıxa çəkilsinlər və ya öldürülsünlər və yaxud əlləri və ayaqları kəsilsin".**

Bundan sonra onlar geri qayıtdılar, hətta, Mədinəyə çatdılar və Əlinin رضي الله عنه yanına gələrək ona dedilər:

– Sən Allahın düşməninin bizim haqqımızda nələri yazdığını görmədinmi? Həqiqətən də, Allah artıq onun qanını halal etmişdir! Qalx, bizimlə gəl, gedək onun yanına. Əli رضي الله عنه dedi:

– Vallahi, sizinlə bərabər qalxmayacağam!

Dedilər ki,bəs bizə yazdığın nə idi?

Dedi:

– Allaha and olsun ki, mən sizə heç vaxt heç bir yazı yazmamışam.

Onlar isə bir-birlərinə baxdılar, sonra bir-birlərinə dedilər:

– Bunun üçünmü mübarizə aparırsınız? (və ya) Bunun üçünmü qəzəblənirsiniz?

Daha sonra Əli رضي الله عنه onlardan ayrıldı və şəhərdən bir kəndə tərəf getdi. Onlar isə yola çıxdılar, ta ki Osmanın رضي الله عنه hüzuruna daxil oldular və ona dedilər:

– Bunları sənmi yazmısan?

Cavabında dedi ki, bu haqda yalnız iki şey deyə bilərəm: "Ya mənə müsəlmanlardan bunu etdiyimə dair

---

[18] Bu məktub Osmana qarşı açıq-aydın böhtan idi və onun haqqında pis zənnə rəvac verdi – red.

əleyhimə iki şahid gətirin, ya da özündən başqa ilah olmayan Allaha and içirəm ki, nə bir şey yazdım[19], nə yazdırdım, nə də bir şey bilirəm. Bilirsiniz ki, insanın adından yazı da yazmaq olur, möhürünü də o möhür kimi köçürtmək olur".

Dedilər:

– Vallahi! Allah sənin qanını halal etmişdir! – Onlar əhdi və sözləşməni pozaraq onu mühasirəyə aldılar. Yaxın günlərin birində Osman رضي الله عنه onlara dedi:

– Sizə salam olsun.

Bunu eşidən oradakı insanlar onun salamını almadılar, salamı alan yalnız öz qəlbində almış ola bilərdi. Bundan sonra (Osman) رضي الله عنه dedi:

– Allah rzası üçün deyin. Heç görmüsünüzmü ki, mən öz malımdan bir Rumə quyusunu alım və (quyudan su çıxarmaq üçün olan) quyu ipimin tutqacını müsəlmanlardan birinin ipinin tutqacı kimi edim?[20]

–"Bəli!"-deyildi.

– Dedi: "Bəs niyə mənə həmin quyunun suyundan içməyə mane olursunuz? Yoxsa dəniz suyu iləmi iftar edim? Allah rzası üçü deyin görüm! Heç gördünüzmü ki, mən hər hansı bir torpaq sahəsi alım və onunla məscidin ərazisini artırım?"

– Dedilər: "Bəli!"

---

[19] Ona isnad edilən məktubu qəsd edir (tərc).

[20] Yəni quyunu öz xalis pulumla alsam da, oradan su çıxarmağı hər bir müsəlman kimi öz növbəmi aşmadan, kiminsə haqqına girmədən etdim. (tərc).

– Heç görmüsünüzmü ki, orda məndən əvvəl kiminsə namaz qılmasına maneçilik törədilsin? Allah rzası üçün deyin görüm! Heç eşitmisinizmi Allahın Peyğəmbəri صلى الله عليه وسلم nələr deyib? Sonra özü (öz fəziləti) haqqında Peyğəmbərin dediklərini sadaladı.

Rəvayətçi deyir: "O, insanlara yenə vəz və xatırlatmalar etdi, lakin onun öyüd və nəsihətini qəbul etmədilər...".

Bütün bu olanlardan sonra onu öldürdülər. Görün, Quranın araşdırıb dəqiqləşdirmək haqqında əmrinə müxalif iş görüldüyü zaman araşdırılmayan xəbərlər müsəlmanlara necə zərər yetirdi? İnsanların çoxusu bu haldadırlar. (xəbərləri) Araşdırma haqqında olan ayə onlardan gizli deyil, lakin tətbiqə gəldikdə onu görməz olurlar. Biz Allaha məxsusuq və ona tərəf qayıdacağıq.

İnsanlardan eləsi var ki, bir çox yalanlardan çəkinir, lakin daim ən pis yalana dalır. O da birbaşa sağlam arqumentləri olmayan pis zənlərə[21] məğlub olmaqdır.

Buxarinin və Müslimin "Səhih"lərində Əbu Hüreyrədən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər صلى الله عليه وسلم dedi:

**"Sizi zənn etməkdən çəkindirirəm. Çünki zənn ən yalan sözdür"[22].**

Bu ona görədir ki, yalanın zəndə baş verməsi sözdə baş verməsindən daha çoxdur. Ola bilsin ki, hər ikisi də cəm olsun və məsələnin çirkinliyi çoxalsın. Necə ki, bu bizim çatdırmaq istədiyimiz məsələdir. Beləliklə, o əməlin sahibi yalanın zirvəsinə çıxmış olur. Necə ki, Müslim Əbu

---

[21] Araşdırmadan - red.
[22] Səhih əl-Buxari. 4849; Səhihi Müslim. 6701.

Hüreyrədən رضي الله عنه rəvayət edir: **“Kişiyə yalan olaraq hər eşitdiyini danışması kifayət edir”[23].** Buna görə də Allah zənn ilə danışanı lənətləyərək buyurmuşdur:

قُتِلَ الْخَرَّاصُونَ

**“Məhv olsun yalançılar”** *(Zəriyat. 10)* və İbn Kəsirin “Təfsir”ində Qatadə رحمه الله demişdir:

“Xarrasun[24] "الخراصون"”: Hiylə və zənn əhlidir. Mücahid isə: “Yalançılardır”, – demişdir.

“İki təfsir arasında ziddiyyət yoxdur. Əksinə, ikisi arasında güclü bir bağlılıq vardır”. Həqiqətən də, yalançı yalnız zənn edərək yalana dalır. O isə haqqında dəlil olmayan zəndir. Necə ki, bunu sonda qeyd olunan Peyğəmbərin iki hədisi bəyan etdi.

Sizdən biri bunu qəribə hesab etməsin ki, Peyğəmbər صلى الله عليه وسلم onu ən böyük yalan adlandırdı; Həqiqətən də, insan öz zənlərinə boyun əyərək yalandan iftira atmaqdan yorulmur. Əksinə, pis zənn öz sahibini böhtana salır. Çünki o, haqqında zənn edilən kəsin qazanmadığı bir şeyi yalnız zənn etmək yoluyla onun üzərinə atmış olur. Allah bu barədə buyurur:

وَالَّذِينَ يُؤْذُونَ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ بِغَيْرِ مَا اكْتَسَبُوا فَقَدِ احْتَمَلُوا بُهْتَانًا وَإِثْمًا مُبِينًا

**“Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üstünə**

---

[23] Səhihi Müslim. 8.

[24] Ayədə keçən və "Yalançılar" olaraq dilimizə tərcümə edilmiş. – red.

**böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər”.** *(Əhzab. 58)*

Müslim[25] Əbu Hüreyrədən رضي الله عنه rəvayət edir ki, Peyğəmbər صلى الله عليه وسلم dedi: **“Bilirsinizmi qeybət nədir?”**

Dedilər:

– Allah və elçisi daha yaxşı bilir.

Dedi:

– **Qardaşını xoşlamadığı bir şeylə xatırlamağındır.** Deyildi ki, birdən görsən ki, dediyim şey qardaşımda var, onda necə?

– **Əgər dediyin şey onda varsa, artıq onun qeybətini etmiş olarsan, əgər yoxdursa, artıq ona böhtan atmış olarsan.**

Ola bilsin ki, qardaşının namusuna haqsız yerə tənə edən kimsə bu iki böyük günahdan birinə mütləq düşsün: qeybət və ya başı bəlaya salan, içinə pis zənnin (güdməyin) daxil olduğu böhtan. Allah bu iki böyük günahı bir ahəngdə cəm edərək Kitabında buyurmuşdur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ وَلَا تَجَسَّسُوا وَلَا يَغْتَبْ بَعْضُكُمْ بَعْضًا أَيُحِبُّ أَحَدُكُمْ أَنْ يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ تَوَّابٌ رَحِيمٌ

**“Ey iman gətirənlər! Çox zənnə qapılmayın. Çünki, zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yeməkistəyərmi? Siz ki**

[25] Səhihi Müslim. *6685.*

**bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhimlidir”.** *(Hucurat. 12)*

Bu iki böyük günah arasında güdməyin (casusluq etməyin) ziyanına fikir verin. Çünki güdmək çox eyib axtaran, çox zənnə qapılan şəxsin arxasınca getdiyi qayə və qeybətçinin birinci ən giriş qapısıdır. Çünki o əməl sahibi (hətta bu işdə ona yorğunluq üz versə belə ) eyibləri ifşa etmək istəyir.

Qasimi رحمه الله “Məhasinut-Təvil” əsərində[26] demişdir: “Casusluq etmək (güdmək) pis zənnin nəticələrindən olduqda artıq qəlb heç cür zənn ilə qane olmur və araşdırmaq istəyir, sonra da güdməklə məşğul olur. Uca və nöqsansız olan Allah pis zənlərin arxasınca getməyi qadağan etdiyini bildirərək buyurmuşdur:

وَلَا تَجَسَّسُوا

**“Bir-birinizi güdməyin”.** *(Hucurat. 12)*

Deyirəm: “Görün, pis zənn necə bu iki böyük günaha çəkir, o iki günah isə güdmək və qeybətdir. Həqiqətən də, bir insan pis zənnə qapılarsa, araşdırmaq üçün güdməyə dalacaq. Əgər araşdırarsa, qeybətində aktivləşmiş olacaqdır. Verilən cümlələrin ardıcıllığı (qısa izahı) budur”.

Şeyx Əbdür-Rəhman əs-Sədi رحمه الله “Teysirul-Kərimil-Mənnan” əsərində bu ayə barəsində deyir: “Doğrudan da, pis zənnin qəlbdə qalması onun yiyəsi üçün sadəcə bununla məhdudlaşmır, hətta o şəxs yaraşmayan sözü deməyincə və yaraşmayan hərəkəti etməyincə buna son qoymur”. “Yaraşmayan hərəkət” dedikdə burda güdmək, “yaraşmayan söz” dedikdə isə qeybət nəzərdə tutulur. Bu, şəriətin nəyə

[26] Məhəsinut-Təvil. 9/*369.*

görə bu pis zənn əxlaqına qarşı şiddətli olmasını bəyan edir. Qoruyan Allahdır.

Məsələnin təhlükəli olmasına görə, doğrudan da, şeytan qəlblərə pis zənlər ataraq onu möhkəm bir şəkildə yerləşdirir. Bu haqda ən təəccüblü gördüyüm rəvayət Peyğəmbərin həyat yoldaşı Safiyyənin رضي الله عنها Allahın elçisini صلى الله عليه وسلم etikaf etdiyi yerdə ziyarət etməsi rəvayətidir. Buxari və Müslim Huyeyyin qızı Safiyyənin belə dediyini rəvayət edirlər: "Allahın elçisi etikaf etdiyi yerdə idi. Mən gecə vaxtı onu ziyarət etməyə gəldim, onunla danışdım, sonra ayağa qalxdım və çevrildim. O da məni çevirmək üçün qalxdı. – Onun (Safiyyənin) qaldığı yer Usamə ibn Zeydin məskənində idi – Bu zaman yoldan ənsardan olan iki nəfər keçirdi. O vaxt ki onlar Peyğəmbəri صلى الله عليه وسلم gördülər, sürətlə getməyə başladılar. Peyğəmbər صلى الله عليه وسلم isə belə dedi: **"Yavaş olun, bu Huyeyyin qızı Safiyyədir!"** Onlar isə dedilər: "Sübhanallah! Ey Allahın elçisi!" (Biz elə bir pis zənn etmərik əsla!) Peyğəmbər صلى الله عليه وسلم dedi: **"Həqiqətən də, şeytan insanın cismində qanın dolaşdığı kimi dolaşır. Mən qorxdum ki, o sizin qəlbinizə bir pislik salsın və ya dedi: bir şey (salsın)"**[27].

Burada təəccüblü olan cəhət; doğrudan da, bir müsəlmanın Peyğəmbər صلى الله عليه وسلم haqqında pis bir şey düşünməsi mümkünsüzdür. Bəs onun iki səhabəsi bunu necə düşünə bilər?![28] (Əlbəttə, bu mümkün deyil).

Müslimdə gələn hədisdə Ənəsdən رضي الله عنه rəvayət olunduğuna görə, Peyğəmbər صلى الله عليه وسلم öz qadınlarından

---

[27] Səhih əl-Buxari. 2035; Səhihi Müslim. 5730.

[28] Necə ki, heç bunu düşünməmişdilər də, sadəcə Allahın elçisi صلى الله عليه وسلم onların zənnə qapılmalarını önləmək üçün bu sözləri demişdi.

biri ilə birgə idi. Bu əsnada yanlarından bir kişi keçdi, onu çağırdı, o da gəldi. Sonra isə belə dedi:

**“Ey filankəs! Bu mənim həyat yoldaşım filankəsdir!”**

O şəxs dedi: “Ey Allahın elçisi! Kimi desən, düşünərəm, amma sənin haqqında zənn etmərəm![29]". Bununla belə o صلى الله عليه وسلم onların bunu etməsindən ehtiyat etmişdi.

Bunda isə aydın bir dəlil vardır ki, şeytan pis zənləri hərəkətə gətirəndir. Bəs insan bu cəhətdən şeytana qarşı hansı təminatı götürür?! Uca Allah buyurmuşdur:

وَقُلْ لِعِبَادِي يَقُولُوا الَّتِي هِيَ أَحْسَنُ إِنَّ الشَّيْطَانَ يَنْزَغُ بَيْنَهُمْ إِنَّ الشَّيْطَانَ كَانَ لِلْإِنْسَانِ عَدُوًّا مُبِينًا

**“Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir”.** *(İsra. 53)*

İbn Həcər رحمه الله “Fəthul-Bari” kitabında belə demişdir: “Bu rəvayətdən hasil olan odur ki, Peyğəmbər o iki nəfərə özü haqqənda pis zənn etməyi nisbət etməmişdi. Çünki onların imanlarının sadiqliyinə bələd idi. Lakin şeytanın onlara vəsvəsə edəcəyindən narahat idi; Çünki onlar məsum deyildilər və bu onların həlak olmalarına aparıb çıxara bilərdi. Ona görə də məsələni kökündən kəsməyə və onlardan sonra gələnlərə təlim keçməyə tələsdi ki, əgər onlar belə bir hadisə ilə rastlaşsalar, necə davranmalı olduqlarını bilsinlər? Necə ki, bunu (imam) Şafi رحمه الله demişdir.

---

[29] Səhihi Müslim. 5769.

Hakim رحمه الله rəvayət edir ki, bir gün Şafi رحمه الله İbn Uyeynənin رحمه الله məclisində olduğu zaman ondan bu hədis barəsində soruşdu. Şafii رحمه الله dedi: "Bunu onlara ona görə dedi ki, əgər onlar onun haqqında onu ittiham edəcəkləri pis zənnə qapılsaydılar, onların küfr edəcəklərindən qorxmuşdu. Buna görə də şeytan onların hər ikisinin qəlbinə onları həlak edəcək şeyi atmamışdan əvvəl tez bir şəkildə bunu onlara nəsihət olaraq bəyan etdi..."

Həmçinin (yuxarıda qeyd edilən) *hədisdə olan faydalardan:*

1. Peyğəmbərin صلى الله عليه وسلم ümmətinə olan şəfqətinin bəyan edilməsi və onları günahlardan uzaqlaşdıracaq məsələlərin öyrədilməsi.
2. Həmçinin burada pis zənnə qapılmağın qarşısının alınması, şeytanın hiyləsindən qorunmaq və (yaxşı zənnə səbəb olacaq) reallığı bildirmək var.

İbn Dəqiq əl-İyd رحمه الله demişdir: "Bu, alimlərdən və insanların örnək götürdüyü şəxslərdən daha təkidlə tələb olunur. Belə ki, onlara öz haqlarında pis zənnə gətirib çıxara biləcək əməl etmək olmaz. Hətta onların bu məsələdə çıxış yolları olsa belə. Çünki bu, insanların onların elmindən faydalanmasına mane olan bir səbəbdir"[30].

Başqası haqqında mücərrəd olaraq zənnə qapılıb danışan kimsənin bilməsi vacibdir ki, o, qorunulan bir şərəfə toxunmuşdur. Peyğəmbər صلى الله عليه وسلم Kəbəyə baxıb belə demişdir: **"Sənə salam olsun, sən necə də əzəmətli evsən və sənin hörmətin necə də əzəmətlidir. Mömin isə Allah qatında səndən daha hörmətlidir. Həqiqətən də, Allah**

[30] "Fəthul-Bari". İbn Həcər. 4/280.

**sənə qarşı bir şeyi haram edib, möminə qarşı isə üç şeyi haram edib: qanını, malını və onun haqqında pis zənn edilməsini"**[31]. Bu da onu göstərir ki, mömininin hörmətini uca tutmaq, onun haqqında gözəl zənn etməklə olur. Necə ki, bunu Qatədə رحمه الله belə təfsir edib.

Əbuş-Şeyx "Ət-Tovbix vət-Tənbih" kitabında[32] səhih isnadla Qatədənin رحمه الله belə dediyini rəvayət edir: "*Allaha and olsun ki, uca Allah mömininin hörmətini ucaldıb və onun haqqında belə deyilər: "Qardaşın haqqında yalnız yaxşı zənn et*". Uca Allah buyurur:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ

**"Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin".** *(əl-Hucurat. 10)*

İbn Dəqiq əl-İyd رحمه الله "əl-İqtirah" kitabında[33] belə demişdir: "Möminlərin irzləri cəhənnəm çuxurlarından bir çuxurdur. Onun ucunda insanlardan iki tayfa dayanmışdır: hühəddislər (hədis alimləri) və hakimlər. "Hakimlər"in mənası "qazilər"dir və bu mənaya daxil olanlardır.

Bu iki tayfanı xüsusilə zikr etmişdir. Çünki onlar ehtiyac duyulduğu zaman və zəruri olaraq digərlərindən daha çox insanların irzlərinə toxunurlar.

Mühəddislər, Peyğəmbərin صلى الله عليه وسلم hədisini qorumaq üçün, cərh və tədil[34] baxımından hədis

---

[31] əl-Beyhəqi bunu "Şuabul-İman" kitabında rəvayət edib. 6706; əl-Albani isə onu "Səhih hədislər toplusu" kitabında səhihləşdirib. 3420).
[32] "Ət-Tovbix vət-Tənbih". səh. 143.
[33] "əl-İqtirah". səh. 34.
[34] Qeyd: "cərh" və "tədil" terminləri hədis elmində çox mühüm terminlərdən hesab edilir. "Cərh" bir rəvayətçini etibardan salan sözlər sayılır, "tədil" isə onun etibarını artıran sözlərdəndir. Ümumiyyətlə, hədis alimləri hədisləri rəvayət edən şəxslərin elmi səviyyələrini,

rəvayətçiləri haqqında danışırlar. Qazilər isə insanların mal, namus və qan məsələlərində hökm verirlər. Buna görə də insanlar içərisində dəqiqləşdirməyə ən çox ehtiyacı olanlar onlardır.

Zəhəbinin رحمه الله "Siyər" kitabında[35] İmam Əhmədin رحمه الله belə dediyi nəql edilir: "Mən, Yəhya ibn Səiddən daha çox insanları dəqiqliklə və ayrı-seçkilik etmədən araşdıran görmədim".

Peyğəmbərin صلى الله عليه وسلم başqası haqqında yaxşı zənn etməsinə örnək olan tətbiqlərindən biri də Buxari[36], Müslim[37] və Nəsainin[38] (ləfz ona aiddir) Əbu Musadan رضي الله عنه etdikləri rəvayətdir. O demişdir: "Mənim yanıma Əşarilərdən bir-neçə şəxs gəlib belə dedi ki, bizimlə Allah elçisinin صلى الله عليه وسلم yanına gedək, bizim ehtiyacımız var. Mən də onlar ilə getdim. Onlar Peyğəmbərin صلى الله عليه وسلم yanına gəldikdə ona dedilər: "Ey Allahın elçisi, öz işində bizim köməyimizdən istifadə et" ( yəni bizi bəzi işlərə rəhbər təyin et ). Əbu Musa dedi: "Onların dediklərinə görə üzr istədim və Peyğəmbərə xəbər verdim ki, onların ehtiyaclarının nə olduğunu qabaqcadan bilmirdim". O صلى الله عليه وسلم məni təsdiqləyib üzrümü qəbul etdi və dedi: **"Biz öz işimizdə bizdən istəyənlərdən istifadə etmərik".**

Bu hekayədə Əbu Musanın رضي الله عنه qövmünün Peyğəmbərin صلى الله عليه وسلم onları bəzi vəzifələrə başçı etməsi tamahı görünür. Onlar Allah elçisinin صلى الله عليه وسلم yanına girmələri üçün Əbu Musadan onlara vasitəçilik etməsini

---

etibarlılıq dərəcələrini bu elm vasitəsilə müəyyən edərdilər. O baxımdan bu elmin İslami elmlər arasında əhəmiyyəti böyükdür. (tərcüməçi).

[35] "Siyər Əaləmin-Nunbəla". Zəhəbi. (10/154).

[36] Səhih əl-Buxari. (6525).

[37]Səhihi Müslim. (4745).

[38] Sünən-ən-Nəsai. (5372).

istədilər. Lakin öz ehtiyaclarının nə olması haqqında ona məlumat vermədilər. Onlar onun (Peyğəmbərin صلى الله عليه وسلم) yanında nə istədiklərini aşkara çıxardıqları zaman Əbu Musa üzrxahlıq istəməyə başladı. Çünki o, Allah elçisinin صلى الله عليه وسلم kiminsə ondan vəzifə istəməsini xoşlamadığını bilirdi. Çünki bunda (vəzifəni) haqqıyla yerinə yetirməmək təhlükəsi var idi. Peyğəmbər صلى الله عليه وسلم onun üzrünü qəbul edir və özünün sevmədiyi bir əməli etməsinə baxmayaraq, Əbu Musanı رضي الله عنه öz qövmünə yerlipərəstlik edərək vasitəçilik etməkdə ittiham etmir. Qoy Peyğəmbəri صلى الله عليه وسلم özünə örnək götürən əxlaq sahibləri də belə olsunlar!

Sələflərin bu peyğəmbər صلى الله عليه وسلم əxlaqına oxşar tətbiqlərindən biri də Ömərin رضي الله عنه əməlidir. O zaman ki insanların Kufədə Səd bin Əbi Vəqqasın رضي الله عنه rəhbərliyinə tənə etməsi xəbəri ona çatdı, o bu məsələni araşdırmağa tələsdi. Çünki o, (Səid رضي الله عنه haqqında yaxşı zəndə olması ilə yanaşı) dövlətində baş verən hadisələrdən hamıdan daha çox məsuliyyət daşıyan bir şəxs idi. Səd ona məsələni açıqladıqda (yəni, onun günahsız olduğu ortaya çıxdıqda) o dedi: "Ey İshaqın atası, mən sənin haqqında elə bunu zənn edirdim"[39].

İbn Həcər رحمه الله "Fəthül-Bari" kitabında[40] belə buyurur:

"Ona, "ey İshaqın atası" deməsi, Sədin رضي الله عنه ən böyük övladının adı ilə deyilən künyəsidir. Bu isə Ömərdən Sədə qarşı ehtiram və hörmət əlamətidir. Bu onu göstərir ki, şikayətin gəlməsi Sədi onun gözündən salmamışdı". Həmçinin demişdir: "Bunda haqqında pis söz-söhbətlər yayılmış şəxsə üzürxahlıq gətirmək var"[41].

---

[39] Səhih əl-Buxari, 755; Səhihi Müslim, 948.
[40] "Fəthül-Bari". İbn Həcər. 2/238.
[41] "Fəthül-Bari". İbn Həcər. 2/238.

*Yəqin ki, bu hekayəni, bizə aid olan bəzi faydaları ilə birlikdə tam şəkildə qeyd etsəm, daha münasib olardı:*

Buxari və Müslimin rəvayətinə görə: “Cabir ibn Səmura belə dedi: “Kufəlilər Ömərə رضي الله عنه Səd ibn Əbu Vəqqas رضي الله عنه barəsində şikayət etdilər. Buna görə də Ömər onu (bu vəzifədən) kənarlaşdırdı və onun yerinə Əmmar ibn Yasiri رضي الله عنه hakim təyin etdi. Kufəlilər (Sədi xeyli) şikayət etdilər, hətta onun namazı düzgün şəkildə qılmadığını belə iddia etdilər. Bu zaman Ömər adam göndərib onu yanına çağırtdırdı və dedi: “Ey İshaqın atası! Bunlar iddia edirlər ki, sən namazı düzgün şəkildə qılmırsan”. İshaqın atası (Səd) dedi:

“Mənə gəlincə, Allaha and olsun ki, mən onlara Peyğəmbərin صلى الله عليه وسلم namazını qıldırmışam və bundan bir şeyi əskiltməmişəm. İşa namazını qıldıranda ilk iki rükəti uzun, son iki rükəti isə qısa qıldırmışam”. Ömər dedi رضي الله عنه: “Mən elə belə də bilirdim, ey İshaqın atası!”- sonra da onunla birlikdə Kufəyə bir və ya daha çox adam göndərdi ki, gedib kufəlilərdən onun barəsində soruşsunlar. (Kufədə) elə bir məscid qalmadı ki, (göndərilən adam və ya adamlar) onun barəsində soruşmasın. Hamı onu xoş sözlərlə anaraq təriflədi.

Axırda həmin adam Abs oğullarının məscidinə gəldi. Oradakılardan Əbu Sədə ləqəbi ilə tanınan Usamə ibn Qətadə adlı birisi ayağa qalxıb dedi: “Madam ki and verib bizdən soruşdun, (onda bil ki,) Səd (heç vaxt) döyüşə gedən dəstəyə qoşulmayıb, (qənimətləri) düzgün bölüşdürməyib və ədalətlə hökm verməyib”.

Səd رضي الله عنه dedi: “İndi ki belə oldu, o zaman Allaha and olsun ki, mən də üç şeylə bağlı (Allaha) dua edəcəyəm: “Allahım! Əgər sənin bu qulun yalançıdırsa, üstəlik bunu göstəriş və riyakarlıq məqsədi ilə edirsə, onda onun ömrünü uzat, yoxsulluğunu artır və onu fitnələrə düçar et!” (Uca Allah Sədin duasını qəbul etdi) Sonralar həmin adamdan (onun halı

barədə) soruşulduğu zaman belə deyərdi: **“Mən başıbəlalı bir qocayam, məni Sədin bədduası tutub”.**

Əbdülməlik ibn Umeyr رحمه الله demişdir: **“Sonralar mən o adamı gördüm, qocalıqdan qaşları gözlərinin üstünə düşmüşdü, özü də küçələrdə cariyələrə sataşır, onlara əl atırdı”[42].**

Şəri yayan insanların aqibəti budur, yalnız Rəbbimin rəhm etdiklərindən başqa. Görün indi haqqında danışılan insan cənnətlə müjdələnmiş on nəfərdən biri olan Səd bin Əbu Vəqqas رضي الله عنه olarsa (bu daha pis olar). Hətta Buxari və Müslimin başqa rəvayətində Ömərin رضي الله عنه ona (Sədə) belə dediyi rəvayət olunur: “*Onlar səni hər məsələdə şikayət ediblər, hətta namazından da şikayət ediblər*”[43].

Amma Ömərin رضي الله عنه onun haqqında deyilən ittihamların sübut olunmadığı halda, onu vəzifəsindən azad etməsinə gəldikdə isə, imam Nəvəvi رحمه الله “Səhihi-Müslim”in şərhində bu barədə belə demişdir: “Bu rəvayətdən belə başa düşülür ki, əgər rəhbərə onun köməkçisi şikayət edərsə, onun yanına məsul şəxs göndərər və o şəxs bu məsələni araşdırar. Bu zaman əgər imam onun vəzifədə davamlı olaraq qalması səbəbindən fəsad törəməsindən və ya fitnə baş verməsindən qorxarsa, onu vəzifəsindən azad edər. Buna görə də Ömər رضي الله عنه onu vəzifəsindən azad etdi. Halbuki onun işində heç bir nöqsan yox idi. Onun bu işə layiq olması və rəhbərliyi əleyhinə sürülən ittihamlar da öz təsdiqini tapmamışdı”[44].

Buxarinin “Səhih” əsərində “Ömərin qətli” və “əş-Şura” hədisində Ömərin رضي الله عنه belə dediyi rəvayət olunur: “Əgər rəhbərlik Sədə düşsə, o, başçıdır. Əks təqdirdə, qoy rəhbərliyə

[42] Səhih əl-Buxari. 755. Səhihi Müslim. 948.
[43] Səhih əl-Buxari. 770; Səhihi Müslim. 951.
[44] Səhihi Müslimin şərhi. Nəvəvi. 4/176.

təyin olunan şəxs onu özünə köməkçi təyin etsin. Mən onu nə acizliyinə, nə də xəyanətinə görə vəzifədən azad etmişəm”.

Buxarinin رحمه الله “Ədəbu-l-Mufrad” kitabında şeyx Albaninin səhihləşdirdiyi rəvayətdə Abdullah ibn Məsuddan رضي الله عنه belə nəql edilir: **“Malı oğurlanan adam o qədər zənnə-gümana qapılır ki, axırda oğrudan da pis olur”**[45]. Bunun mənası odur ki, malı oğurlanan adam oturub fikirləşir ki, görəsən, onun malını kim oğurlayıb? Sonda gəlib o həddə çatır ki, hətta bu işdə bir günahı olmayan insanlardan da şəkk-şübhə edir. Beləcə, onun günahı oğrunun günahından daha çox olur. Allah kömək olsun.

## PİS ZƏNNƏ DÜŞMƏYİN SƏBƏBLƏRİ

Mən burda insanların pis zənnə düşmə səbəblərinin bəzilərini ümumi şəklində qeyd edəcəyəm :

### 1 – Bir çox hallarda insanlar arasında pis zənn onların arasına düşmənçilik düşdüyü zaman baş verir;

Düşmənləri haqqında hər hansı bir pis xəbər yayıldıqda onlar bunu tələsərək əxlaqlarının zəifliyi və qulaqlarını geniş açmaqla qarşılayarlar. Çünki gözəl əxlaqa sahib olsaydılar, zənnə-gümana qapılmaz və nəfsi istəklərinə uyaraq dərhal bu xəbərləri təsdiqləyərək qəbul etməzdilər. Əziz və Cəlil olan Allah belə buyurur:

إِنْ يَتَّبِعُونَ إِلَّا الظَّنَّ وَمَا تَهْوَى الْأَنْفُسُ

[45] “Ədəbul-Mufrad”. Buxari. 1289; şeyx Albani "Ədəbul-Mufrad" əsərinə qeydlərində bu rəvayətə "səhih" deyib. 979.

**“Onlar yalnız zənnə və nəfslərinin istəklərinə uyarlar”.** *(ən-Nəcm 23)* Buradakı söhbətimiz şiddətli düşmənçilikdən əmələ gələn nifrət dolu zənndən gedir. Hansı ki ona möhkəm nifrət qarışaraq bu düşmənçiliyi qəzəb şəhvətinə aparıb çıxarır. Bu zaman bəşər övladının düşüncəsi dayanır. Əlalxüsus da, əgər aralarında ixtilaf baş verən kəslərdən biri onun dostu və yaxud yaxını olarsa. Belə vəziyyətdə bir çox insanlar ( öz dostları və yaxınları olsa belə) dəlil-sübut olmadan, obyektivliyi itirərək *pis zənnə qapılırlar.* Əksinə, Allah bunun kafirlərin həddi aşaraq cahiliyyə lovğalığı etmələrindən olduğunu xəbər verərək buyurmuşdur:

إِذْ جَعَلَ الَّذِينَ كَفَرُوا فِي قُلُوبِهِمُ الْحَمِيَّةَ حَمِيَّةَ الْجَاهِلِيَّةِ

**“Kafirlər öz qəlbində təkəbbürlüyə – cahiliyyə lovğalığına qapıldıqları zaman”.** *(əl-Fəth 26)* Mömin ciddi və dəqiqləşdirən olmalı, həqiqəti axtarmalı, özünü idarə etməyi bacarmalı və sözlərinə fikir verməlidir.
Uca Allah belə buyurmuşdur:

وَإِذَا قُلْتُمْ فَاعْدِلُوا وَلَوْ كَانَ ذَا قُرْبَى

**“Söz söylədiyiniz zaman qohumunuz olsa belə, ədalətli olun”.** *(əl- Ənam. 152)* Həmçinin, belə buyurmuşdur:

قُلْ أَمَرَ رَبِّي بِالْقِسْطِ

**“De: “Rəbbim ədalətli olmağı əmr etdi”.** *(əl-Əraf. 29)*

Belə məsələlərdə (hətta açıq-aşkar düşmənlə olsa belə) haqqı araşdırmaq ədalət əhlinin yoludur. Pak və nöqsansız Allah buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ لِلَّهِ شُهَدَاءَ بِالْقِسْطِ وَلَا يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ عَلَى أَلَّا تَعْدِلُوا اعْدِلُوا هُوَ أَقْرَبُ لِلتَّقْوَى وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ

**“Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır”.** *(əl-Maidə. 8)*

Pak və nöqsansız olan Allah öz peyğəmbərinə صلى الله عليه وسلم və onun səhabələrinə رضي الله عنهم onları Məscidül-Harama *daxil olmağa* qoymayanlara qarşı belə ədalətli olmağı əmr edərək buyurmuşdur:

وَلَا يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ أَنْ صَدُّوكُمْ عَنِ الْمَسْجِدِ الْحَرَامِ أَنْ تَعْتَدُوا

**“Sizi Məscidul-Harama daxil olmağa qoymayan camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin”.** *(əl-Maidə. 2)*

Çox vaxt insanlar öz düşmənləri haqqında deyilən sözlərin doğru, yoxsa yalan olduğunu bilmirlər. Buna baxmayaraq, əgər bu xəbərlər onlara sərf edərsə, bu xəbərləri təsdiqləməyə və yaymağa tələsərlər. Onları buna sövq edən düşmənçilikləri ucbatından əmələ gələn qəzəbdir.

## 2– Bəzi insanların başqaları haqqında pis zənn etməkdə səhlənkar olmaları.

Pis zəndə səhlənkar onların pis əməllərindən irəli gəlir. Belə bir deyim var: “*Zinakar qadın hamının zina etməsini istəyər*”. Buna yaxın bir deyim isə belədir: “*Daxilində olan şey dilində biruzə verər*”. Həmçinin onlar istəyərlər ki, özləri kimi pis əməlləri edənlərin sayı artsın, bununla da onun qəlbində həmin çirkin əməlin yaratdığı narahatçılıq azalsın. Necə deyərlər: “*Müsibət yayıldıqca yüngülləşər*”. Buna görə də onlara kiminsə pis bir əməl etməsi haqqında xəbər çatdıqda onlar asanlıqla bunu həmin adamın edə biləcəyini təsəvvür

edirlər. Çünki onlar bu əməli asanlıqla edirlər. Necə ki, deyilmişdir:

*Əməli pis kimsənin zənləri də pisləşir,*
*Təkrar etdiyi zənlər bunu təsdiq eyləyir.*

Bəziləri bunu belə şərh etmişlər: "O zaman ki insanın əməlləri çirkinləşir və bunun acı nəticləri büruzə verməyə başlayır, onda onu pis zənlər idarə edir. Onun təkrarən etdiyi *əsassız* pis zənlər də bunu təsdiqləyir".

Bununla yanaşı, pislikdə şərik olmaq edilən pislikdən xilas etmir. Qiyamət günü hər bir nəfs etdiyi hər bir yaxşılığın və pisliyin öz qarşısında olduğunu görəcəkdir. Çünki uca Allah buyurur:

وَلَنْ يَنْفَعَكُمُ الْيَوْمَ إِذْ ظَلَمْتُمْ أَنَّكُمْ فِي الْعَذَابِ مُشْتَرِكُونَ

**"Siz haqsızlıq etdiyinizə görə bu gün əzaba şərik olmağınız sizə heç bir fayda verməz".** *(əz-Zuxruf. 39)*

## 3 – Bəzi insanlar elə düşünürlər ki, başqa insanların hiylələrini bilməyə çalışmaq zəruridir.

*Beləcə, bu özünü ayıq (ehtiyatlı) sanmaq və məlumat almaq istəyi əsassız pis zənlərə tabe olmaqla ona bəzəkli görünər. Beləcə, o kimsəyə düşməni haqqında ayıq olmaqla onun haqqında ədalətli (obyektiv) olmağı cəm etmək çox ağır gəlir. Bu da yalnız haqqında zənn edilən şəxsə zülm etməklə baş verir. Neçə-neçə insanlar olub ki, özlərinə qarşı qəlbinin qaraldığı insanların səhvlərini, eyiblərini açmağa və camaat arasında dedi-qodu yaymağa tələsməklə öz nəfsinə qarşı cinayət etmişlər. Əgər o, əminliklə bilsəydi ki, hiyləgərin hiyləsi zaman keçdikcə özünə qayıdacaq, o zaman həmin şəxs*

*bilmədiyi bir işin arxasınca getməzdi. Çünki uca Allah buyurmuşdur:*

وَلَا يَحِيقُ الْمَكْرُ السَّيِّئُ إِلَّا بِأَهْلِهِ

**"Yaramaz hiylələr isə ancaq öz sahiblərini qaplayar".** *(Fatir. 43)*

*Hiyləgər öz hiyləsini nə qədər gizlətsə də, Allah onu nə vaxtsa açıb onu biabır edəcəkdir. Əziz və Cəlil olan Allah buyurmuşdur:*

وَاللَّهُ مُخْرِجٌ مَا كُنْتُمْ تَكْتُمُونَ

**"Allah isə sizin gizlətdiklərinizi aşkara çıxarar".** *(əl-Bəqərə. 72) Həmçinin buyurmuşdur:*

إِنَّ اللَّهَ مُخْرِجٌ مَا تَحْذَرُونَ

**"Allah sizin *bilinməsindən* həzər etdiyiniz şeyi aşkara çıxarar".** *(ət-Tövbə. 64)* Nəticədə zülmə zülmlə cavab vermiş olur. Elə isə (belə birisinə) nə vaxt (necə) yardım gəlsin ki?

Başqası haqqında heç bir əsas olmadan pis zənn etmək və ona ittihamlar yağdırmaq zülmdür. *Məlumdur ki, məzlum kimsə kafir olsa belə, hər bir halda ona kömək ediləcəkdir.* Peyğəmbərin صلى الله عليه وسلم dövründə bunu təsdiqləyən bir hadisə baş vermişdir. O vaxt ki kafir bir kölə qadın günahsız olduğu halda, bahalı zinət əşyası oğurlamaqda ittiham edilmişdi. Buxarinin - رحمه الله - Aişədən رضي الله عنها rəvayət etdiyinə görə:

"Ərəb qəbilələrindən birində qara dərili kölə qadın vardı. (Qadın) azad edildikdən sonra da onların yanında qalmışdı. Qadın dedi: "Bir dəfə mənim kimi bir qızcığaz çiynində qırmızı rəngli dəridən olan, üstündə mirvari düzülmüş bağlama ilə (evdən) bayıra çıxdı. Bundan sonra bir çalağan (bağlamanın) üstündən uçarkən, onu yerə düşmüş ət parçası

bilib qapıb götürdü. Ev əhli bağlamanı axtardı, lakin tapa bilmədi. Sonra onlar məni oğurluqda günahlandırdılar. Rəvayətçi deyir ki: "Onun üst-başını axtardılar, hətta ayıb yerlərinə belə baxdılar".

Cariyə dedi: "Allaha and olsun ki, mən onların yanında dayandığım zaman həmin çalağan (yenə üstümüzdən) uçub bağlamanı yerə saldı və o düz o adamların ortasına düşdü. O zaman mən dedim: Budur, məni günahlandırdığınız şey, halbuki onun itməsində mən günahkar deyildim, indi o sizin qarşınızdadır".

Aişə رضي الله عنه dedi: "Sonra həmin qadın Peyğəmbərin صلى الله عليه وسلم yanına gəlib İslamı qəbul etdi. Məscidin yaxınlığında onun çadırı (balaca koması) var idi. O, tez-tez yanıma gəlib mənimlə söhbət edirdi. Qadın (hər dəfə) məni görəndə (belə bir beyt) şeir deyərdi:

Bağlama itdiyi gün, Rəbbin möcüzəsiydi,
Kafirlər diyarında O məni xilas etdi".

Aişə رضي الله عنه dedi: "Mən ondan soruşdum: "Nə üçün sən hər dəfə mənimlə görüşəndə bunu deməmiş oturmursan?" - o da mənə bu əhvalatı danışdı"[46].

Yəqin bu cariyə fikirləşirdi ki, bir insanın sadəcə bir zənnə görə ittiham olunması və (üst-başının) bu cür aşağılanaraq yoxlanılması gözəl əxlaqdan deyil. Bu iş onu çox məyus etmişdi. Ancaq Allah onu çox qəribə bir üsulla təmizə çıxartdı və bu onun islamı qəbul etməsinə səbəb oldu. Çünki o bildi ki, bu cür (yolla) təmizə çıxartmaq yalnız Allahın işidir. Axı göylərdə minlərlə quş var və necə ola bilər ki, oğurçu quşun özü gələrək bağlamanı ittiham edənlərin düz arasına salsın? Bunu mütləq Allah ona əmr etmişdir.

[46] Səhih əl-Buxari. 439.

İbn Rəcəb رحمه الله "Fəthul-Bəri" kitabında belə buyurur: "Bu hədisdə Allahın, kafirin belə qəm-qüssəsini qeyri-adi yollarla aradan qaldırmasına dəlil var... Əgər həmin kafir bu qadın kimi məzlum olarsa, onun qəm-qüssəsinin aradan qaldırılması və duasının qəbul olunması ehtimalı daha çoxdur. Həqiqətən də, kafir məzlumun duası belə bəzən qəbul olunur"[47].

Bil ki, deyilən və ya yazılan hər bir kəlməni etibarlı və hörmətli daşıyıcılar uca və ədalətli Hakimə daşıyırlar. O (Allah) belə buyurur:

مَا يَلْفِظُ مِنْ قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ

**"Dediyi hər bir sözü onun yanında hazır durub gözləyən vardır".** *(Qaf. 18)* Qəlbin daşıdığı elə bir xəbər, gözün və qulağın şahid olduğu elə bir şey yoxdur ki, onun sahibi gözlərin dəhşətdən bərələcəyi gün etdiklərindən soruşulmasın. O gün nə bir peşmançılıq, nə də Allahdan bağışlanmağı diləmək fayda verməz. Pak və nöqsansız olan Allah belə buyurmuşdur:

وَلَا تَقْفُ مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ إِنَّ السَّمْعَ وَالْبَصَرَ وَالْفُؤَادَ كُلُّ أُولَئِكَ كَانَ عَنْهُ مَسْئُولًا

**"Bilmədiyin bir şeyin ardınca getmə. Çünki qulaq, göz və ürək - bunların hamısı sorğu-sual olunacaqdır".** *(əl-İsra. 36)* Həmçinin "Zuxruf" surəsində belə buyurmuşdur:

سَتُكْتَبُ شَهَادَتُهُمْ وَيُسْأَلُونَ

**"Onların bu şəhadəti yazılacaq və sorğu-sual olunacaqlar".** *(əz-Zuxruf. 19)* Artıq barəsində açıq-aşkar bir dəlillə sabit olmayan xəbərlərin Peyğəmbərə صلى الله عليه وسلم görə ən böyük yalan olması və Peyğəmbərin صلى الله عليه وسلم **"İnsana**

[47] "Fəthul-Bari". 3/219.

**yalan olaraq hər eşitdiyini danışması yetər”,-** deməsi barəsində danışmışdıq. Əgər bu yalan günah olaraq kifayət edərsə, mömin bir kimsə də öz zənləri ilə günahdan doymuş və kifayətlənmişsə, elə isə o Allahdan düşmənin zülmünü ondan yox etməsini necə istəyə bilər?

# PİS ZƏNNİN ƏLACI

## 1 - Başqası haqqında hökm verməmişdən əvvəl dəqiqləşdirmək.

Həqiqətən də, tələskənlik öz sahibini bilmədiyi bir şeyi deməsinə gətirib çıxara bilər. Sonra çox keçməz ki, o kimsə peşman olar və üzrxahlıq etmək üçün bəhanələr axtarmağa başlayar. Lakin söz ağızdan çıxarsa, artıq onu düzəltmək çətinləşər.

Əbu Əyyub رضي الله عنه demişdir: “(Bir gün) peyğəmbərin صلى الله عليه وسلم yanına bir kişi gəlib belə dedi: “Ey Allahın elçisi, məni qısa bir şəkildə (bir şey) öyrət”. Peyğəmbər صلى الله عليه وسلم belə dedi: **“Namaza durduqda onu sonuncu namazınmış kimi qıl. Sonradan üzrxahlıq edəcəyin bir söz danışma. İnsanların əlində olandan ümidini üz”**[48,49].

Bəzən bu günahın çirkinliyi yalan yerə bəhanələr gətirməklə daha da çoxalır. Çünki demək olar ki, “Üzrxahlıq gətirənlərin çoxu yalan danışır”. Bunu əl-Xəraiti Meymun ibn Mihrandan رحمه الله rəvayət etmişdir[50]: “Fikir ver, dəqiqləşdirilməmiş deyilən söz necə pis zənnə gətirib çıxarır?

---

[48] Sünəni İbn Macə. 4171; şeyx Albani həsənləşdirb.
[49] Yəni, insanların əlində olana göz dikmə.
[50] *"Məsəviul- Əxlaq və Məzmumuhə” kitabında. səh. 683.*

Sonra isə qorunan namusa və şərəfə tənə etməyə, sonra isə yalana necə gətirib çıxarır?”.

İbn Həcər رحمه الله demişdir: “O kəslər ki sözlərin, əməllərin və insanların araşdırılması ilə məşğuldurlar, onlar gərək nəql edilən xəbərləri diqqətlə araşdırsınlar, yalnız dəqiqliklə bildiklərini mütləq desinlər və yayılmış şayiələrlə kifayətlənməsinlər”[51].

Əgər onun öz düşməni haqqında etdiyi pis vəsf dedi-qodu üzərində qurulubsa, artıq o öz dilini zənlər quyusuna salmışdır. Əgər sözündə doğru olarsa, onun düşmənindən onun yaxşı əməllərindən ona qədər günahları silinər. Çünki düşməninin haqqında danışdığı söz doğrudursa, onda bu, qeybət və sözbazlıq baxımından günah olar. Necə ki, biz bunu bu kitabda müzakirə etmişdik. Bəs əgər onun danışdığının çoxu yalandırsa, gör necə olar?

Peyğəmbər صلى الله عليه وسلم dəqiqləşdirilməniş bəsit iddialara etimad etməyi qadağan etmişdir. Əbu Məsuddan رضي الله عنه soruşuldu: “Peyğəmbərin صلى الله عليه وسلم **“dəlilsiz iddialar”** haqqında nə dediyini eşitmisən?” O dedi: “Peyğəmbərin صلى الله عليه وسلم belə dediyini eşitmişəm: **“Dəlilsiz iddialar” kişinin necə də pis bir miniyidir!”**[52].

Bəğavi رحمه الله “Şərhus-Sünnə” kitabında belə deyir: **“Bundan sonra Peyğəmbər صلى الله عليه وسلم danışılan və rəvayət edilən hər bir şeydə dəqiqləşdirməyi və ehtiyatlı olmağı əmr etdi”**[53]. Şeyx Abdurrəhman ibn Əs-Sədi رحمه الله “Riyadun-Nadirah” kitabında demişdir: “Çox çirkin və təhlükəli səhvlərdən biri də insanların bir-birləri haqqında

---

[51] Səxavinin "Zeylul-Tibri əl-Məsbuk" kitabı. səh. 4.
[52]Sünəni Əbu Davud, 4974; şeyx Albani "Silsilətis-Sahiha" əsərində səhihləşdirib, 866"
[53] “Şərhus-Sünnə”. Bəğavi. 12/362.

olan sözlərini (birbaşa) qəbul etmələridir. Bundan sonra isə dinləyici haqqında danışılan adama qarşı sevgisini və ya qəzəbini, tərifini və ya qınağını bu sözlər üzərində qurur. Sonu peşmançılıq olan neçə-neçə hallar bu çirkin səhv ucbatından baş vermişdir. Həmçinin insanlar öz aralarında bir-birləri haqqında həqiqətdə mövcud olmayan neçə-neçə şayiələr yaymışlar. Ona görə də ağıllı insana dəqiqləşdirmək, ehtiyat etmək və tələsməmək vacibdir”[54]. Belə bir deyim var:

Neçə xeyirlər var, onun bəlası
Ona yalan qatan kəslərdir ancaq!
Neçə xəbərlər var, onun bəlası
Onu dərhal yayan kəslərdir ancaq!

Bütün bunlara yalnız dəqiqləşdirməyə ehtiyac olan məsələlərdə riayət edilir. Çünki heç də həmişə insanlara isnad edilən xəbərləri dəqiqləşdirməyə ehtiyac olmur. Qarşıda verilmiş tövsiyələrlə kifayətlənmək ola bilsin ki, yetərli olsun:

## 2 - Müsəlmanın öz qardaşı haqqında bacardığı qədər üzr axtarmağa çalışması.

Bununla sinələri xeyir üçün geniş olan və qəlbləri başqalarına rəhmət ilə coşub-daşan nəfslər daha da gözəlləşir və yaxşılaşır. İbn əbüd-Dünya “Mudəratun-Nəs” və əl-Muhamili isə özünün “Əməli” kitabında Ömər ibnil-Xəttabdan belə rəvayət etmişdir: *“Bir müsəlman haqqında onun ağzından çıxmış sözü başqa bir mənaya yoza biləcəyin halda, pis zənn etmə”*[55].

---

[54] “Riyadun-Nadirah”. səh. 209.

[55] Bunu əs-Suyuti “Durrul Mənsur” kitabında imam Əhmədin رحمه الله “Əz-Zühd” kitabında rəvayət etdiyini deyir.

Həmçinin Xətib əl-Bağdadi "əl-Müttəfiq vəl-Müftəriq" kitabında bunu uzun bir söz əsnasında, İbn Əsakir "Tarixu Dəməşq" kitabında, İbn Nəccar "Zeylu Tarixi Bağdad" kitabında, Zübeyr ibn Bəkkər "əl-Müvəffəqiyyət" kitabında "yaxşı" bir isnadla Səid ibnül-Museyyibin رحمه الله belə dediyini rəvayət etmişlər: "Ömər ibnul Xəttab رضي الله عنه insanlar üçün hamısı hikmətli olan on səkkiz kəlam dedi: **"Sənə qarşı Allaha asilik edənin ən gözəl cəzasını sən ona qarşı Allaha itaət etməyinlə verə bilərsən. Qardaşının işini ən gözəl yerə yoz ki, ondan sənə daha gözəl bir qarşılıq gəlsin. Müsəlmanın ağzından çıxan kəlməni xeyrə yoza biləcəyin halda, onun haqqında pis zənn etmə. Kim ittihama açıq olan bir işi görərsə, onun haqqında pis zənn edəni qınamasın. Kim sirrini qoruyarsa, (sirrin yayılıb-yayılmamasındakı) seçim onun əlində olar. Yanlarında yaşamaq üçün dürüst qardaşlar seç. Həqiqətən də, onlar rahatçılıqda bəzək, çətinlikdə isə köməkdirlər. Öldürülsən belə, sadiqlikdən əl çəkmə. Sənə aid olmayan işlərə girişmə, olmamış şeylər haqqında soruşma, həqiqətən də, bu işdə olmamış şey ilə məşğul olmaq var. Sənin üçün xeyir istəməyən kəsdən öz ehtiyaclarını istəmə. Yalan yerə and içmək kimi səhlənkarlıq etmə, yoxsa həlak olarsan. Günahlarından öyrənmək məqsədilə günahkarlarla yoldaşlıq etmə. Düşmənindən uzaq ol. Etibarlı olandan başqa bütün dostlarından ehtiyatlı ol. Etibarlı adam yalnız Allahdan qorxandır. Qəbirlərin yanında təvazökar ol. İtaət edərkən (yalnız Allah üçün) zəlil ol. Müsibət anında möhkəm dayan. Öz işində Allahdan qorxanlarla**

**məşvərət et.** Çünki Allah buyurmuşdur: **“Allahdan öz bəndələri içərisində yalnız alimlər qorxar”.** *(Fatir. 28)*[56]

Beyhəqi “əş-Şuab” kitabında Səid ibnil Museyyibdən belə rəvayət edir: “Peyğəmbərin صلى الله عليه وسلم səhabələrindən olan bəzi qardaşlarım mənə məktub yazıblar...” və az öncə qeyd etdiyimiz rəvayətə oxşar bir rəvayəti zikr edir[57].

Əbüş-Şeyx “ət-Tövbix və ət-Tənbih” kitabında, həmçinin Əbu Nueym səhih isnadla rəvayət edirlər ki, Ömər ibn Əbdül-Əziz belə deyərdi: “*Bacardıqca öz qardaşın haqqında yaxşı zənn et’*[58].

İbn əbid-Dünya “əl-İşraf alə Mənazilil Əşraf” və “Mudəratun-Nəs” kitabında Əbdül-Əziz ibn Ömər ibn Əbdül-Əzizdən رحمه الله belə rəvayət edir: “Atam mənə dedi: “*Ey oğlum! Əgər müsəlman olan bir kəsdən nəsə eşitsən, onu yaxşıya yoza biləcəyin halda, pis yerə yozma*”[59].

Həmçinin “Mudəratun-nəs” kitabında ondan belə dediyi rəvayət olunur: “*İnsanların ən aqili onlara ən çox üzr tapandır*”[60]. Yenə də həmin kitabda və əl-Hənnadın “Zühd” kitabında, “Əməli ibn Səmun” və Beyhəqinin “Şuabul-

---

[56] Xətib əl-Bağdadi, "əl-Müttəfiq vəl-Müftəriq". 141. İbn Əsakir, "Tarixu Dəməşq". 44/360. İbn Nəccar, "Zeylu Tarixi Bağdad". 17/231 və s.

[57] Beyhəqinin "Şuab əl-İman" əsəri. 8345.

[58] Əbüş-Şeyx "ət-Tövbix və ət-Tənbih". 147; Əbu Nueym "Hilyə". 5/277.

[59] İsnadı səhihdir, əgər İbn Cureycin "an-anəsi" olmasaydı, lakin Ömər ibn Həfs Əbu Nueymin "əl-Hilyə" kitabında eynisini rəvayət edib. Rəvayətin mənbəyi: İbn əbid-Dünya "əl-İşraf alə Mənazilil Əşraf". 216. və "Mudəratun-Nəs". 39.

[60] İbn Əbid-Dunyə. “Mudəratunnəs”. 41.

İman" kitabında Əbu Qiləbədən belə rəvayət olunur: "*Çalış, öz qardaşın üçün üzr tapasan, əgər üzr tapmasan, belə de: "Ola bilsin ki, qardaşımın mənim bilmədiyim bir üzrü var*"[61].

Əbüş-Şeyxin "Ət-Tövbix və ət-Tənbih" kitabında və "Şuabul-İman" kitabında İbn Sirindən رحمه الله bunun bənzəri rəvayət olunur[62].

"Şuabul-İman" kitabında Cəfər ibn Məhəmmədin رحمه الله belə dediyi rəvayət olunur: "*Əgər qardaşın haqqında sənə xoşlanmadığın bir xəbər çatarsa, ona birdən yetmişə qədər üzr axtar. Əgər üzr tapsan, nə gözəl, yox əgər üzr tapmasan, onda belə de: "Ola bilsin ki, qardaşımın mənim bilmədiyim bir üzrü var*"[63].

Əbü Əbdür-Rəhman Əs-Suləminin "Ədəbus-Suhbə" və Beyhəqinin "Şuabul-İman" kitabında Həmdun əl-Qassarın belə dediyi rəvayət olunur: "*Əgər qardaşlarınızdan biri xəta etsə, ona yetmiş üzr axtarın. Əgər qəlbiniz bununla razılaşmasa, bilin ki, qüsur sizdədir. Çünki bir müsəlmanın yetmiş üzrü ortaya çıxdığı halda, siz bunu qəbul etmədiniz*". Bax, sələflər bu kəlmə ilə bir-birlərinə necə nəsihət edərdilər?!

Yenə buna bənzər bir rəvayət "Ədəbus-Suhbə" kitabında Abdullah ibn Məhəmməd ibn Mənazildən رحمه الله rəvayət edilir. O demişdir: "*Mömin öz qardaşlarına üzr axtarar, münafiq isə öz qardaşlarının xətalarını axtarar*". Buna görə də belə bir söz var: "*Mömin çox üzr gətirəndir, münafiq isə çox səhv axtarandır*"[64].

---

[61] İbn Əbid-Dunyə." Mudəratunnəs". 40. Zühd. Hənnad. 1225. "Əməli" ibn Səmun. 141. "Şuabul-İman". Beyhəqi. 8336.
[62] "Ət-Tövbix və ət-Tənbih". Əbüş-Şeyx. 91. "Şuabul-İman". 8342.
[63] "Şuabul-İman". Beyhəqi. 8344.
[64] "Ədəbus-Suhbə". Əbu Əbdürrəhman əs-Süləmi. 11.

İbn Səd yaxşı isnadla[65] Bəkr əl-Müzəninin belə dediyini rəvayət edir: "Düz olacağı təqdirdə mükafat (və ya savab) əldə etməyəcəyin, səhv olacağı təqdirdə isə günah qazanacağın sözdən çəkin. Bu sənin bir qardaşın haqqında pis zənn etməyindir". Həmçinin "ət-Tövbix və ət-Tənbih" kitabında onun belə dediyi rəvayət olunur: "Sizin özünüzdə olan (yaxşı) cəhətlərin sizə nisbət edilməsini xoşladığınız kimi, qardaşlarınıza da onlarda olan (yaxşı) cəhətləri nisbət edin. Müsəlman qardaşında gördüyün hər bir xəta və ya hər bir səhv sənin iki gözünün görməsilə baş vermir. Unutma ki, sən özündən xətalı görülməyə daha layiqli ola bilərsən..." [66]. Alimlərin özlərindən başqaları haqqında gözəl zənn etmə metodunu bəyan edən misallardan biri də İbn Əbi Hatimin "Mənəqibuş-Şafi" kitabında ər-Rabiadan rəvayət etdiyi bu hekayədir. O dedi: "Şafi رحمه الله xəstə olduğu halda, onun yanına girdim və ona belə dedim: "Allah sənin zəifliyini gücləndirsin". Bu zaman o belə dedi: "Əgər Allah mənim zəifliyimi gücləndirsə, bu məni öldürər". Dedim: "Allaha and olsun ki, mən (bu sözü deməklə) yalnız xeyir istəyirdim". O dedi: "Bilirəm ki, sən məni söysən belə, xeyirdən başqa bir şey istəməzsən". Digər rəvayətdə isə: "De ki, Allah gücünü gücləndirsin, zəifliyini isə zəiflətsin"[67].

İbn Teymiyyə رحمه الله "ər-Raddu aləl-Bəkri" kitabında belə deyir: "Şafi رحمه الله sözün həqiqi mənasına baxdı, bu isə "zəif" kəlməsidir. Rabi isə zəifi zəiflik adlandırmağı qəsd etmişdi, necə ki, adil olan ədalətli adlanır. Şafi bu sözü onun yaxşı niyyətlə dediyini bildikdən sonra belə deməyi özünə vacib bildi: "Sən məni açıq-aşkar söysən belə, yəni dildə açıq-aşkar ifadələr işlətsən, bilirəm ki, sən xeyirdən başqa bir şeyi qəsd etməzsən". Beləcə, onun yaxşı məqsədlə bu

[65] "Tabaqatul-Kubra". İbn Səd. 7/209.
[66] "ət-Tövbix və ət-Tənbih". əbüş-Şeyx. 92.
[67] "Mənəqibuş-Şafi". İbn Əbi Hatim. səh. 274.

sözü dediyini anlayıb bu niyyəti önə çəkdi və bu pis sözü onun qədir-qiymətini aşağı salan bir amilə çevirmədi. Bəzən insanın dili çaşaraq onun qəsd etmədiyi bir şeyi deyə bilər. Necə ki, dua edən sevincindən: "*Allahım Sən mənim qulumsan, mən isə sənin rəbbinəm*",- deyərsə, Allah onu qınamaz[68].

İbn Əbid-Dünya "əs-Samt" kitabında, əl-Xaraiti "Məsəvi Əxlaq və Məzmumuhə" kitabında İbn Ovnun belə dediyini rəvayət edirlər: "İbrahimin (ən-Nəxai) رحمه الله yanında bir nəfər üzrxahlıq etdi. O belə dedi: "Üzrün olmasa belə, səni üzrlü saydıq. Həqiqətən də, üzrxahlığa yalan qarışar"[69]. Beləcə, onun haqqında gözəl zənn etməklə onun günaha düşməməsi üçün ona qarşı rəhmət göstərməyi bir arada cəm etmiş oldu. Kin-küdurətdən salamat və uzaq olan qəlblər belə olur.

İbn Səd "Tabaqatul-Kubra" kitabında Zeyd ibn Əsləmin belə dediyini rəvayət edir: "*Əbu Dücanə رحمه الله xəstə olduğu zaman onun yanına insanlar daxil olurlar. Onun üzü nur saçırdı. Ona dedilər: "Sənin üzün hansı səbəbdən nur saçır?" O dedi: "Əməllərimin içərisində daha çox etibar etdiyim yalnız iki əməl var: Birincisi, özümə aid olmayan işlərdən danışmırdım. İkincisi isə odur ki, qəlbim müsəlmanlara qarşı salamat idi"*[70].

Vəki "Əxbarul-Qudat" kitabında Müaviyə ibn Qurranın belə dediyini rəvayət edir: "O, onların içərisində

---

68 "ər-Raddu aləl-Bəkri". İbn Teymiyyə. 2/663.
69 əs-Samt. İbn Əbid-Dünya. səh. 506. "Məsəviul-Əxlaq və Məzmumuhə". 684.
70 "Tabaqatul-Kubra". İbn Səd. 3/557.

ən fəzilətlisi, qəlbi ən salamat olanı və qeybəti ən az olanı idi”[71].

İbnul Muləqqinin “Tabaqatul Övliya” kitabında Fudeyl ibn İyadın رحمه الله belə dediyi rəvayət olunur: “Bizdən *xeyrə* nail olmuşlar orucun, namazın çoxluğuna görə yox, gözəl nəfsə sahib olduqlarına, qəlblərinin salamat olduğuna və ümmətə nəsihət etdiklərinə görə *xeyrə* nail olmuşlar”[72].

İbn Hibban رحمه الله “Rovdatul-Uqalə” kitabında belə demişdir: “Casusluq etmək nifaqın şöbələrindəndir. Gözəl zənn etmək isə imanın şöbələrindəndir. Ağıllı kimsə öz qardaşları barəsində yaxşı zənn edər və dərd-qəmləri ilə təkbaşına qalar. Cahil isə əksinə, öz qardaşları barəsində pis zənn edər. Lakin öz günahları və nigaran qaldığı məsələlər haqqında heç düşünməz”[73].

Həmçinin Məhəmməd ibn Saleh ibn Useymin رحمه الله “Şərhul Mumti” kitabında demişdir: “Hər bir insana müstəhəbdir ki, müsəlman haqqında yaxşı zənn etsin. Əgər sənə bir insandan xeyrə və şərə yozula biləcək bir söz çatsa, bacardıqca onu xeyrə yoz. Həmçinin əgər bir insan xeyrə və şərə yozula biləcək bir hərəkət etsə, bacardıqca onu xeyrə yoz. Çünki bu sənin qəlbindən kin-küdurəti, düşmənçiliyi çıxarar və səni rahatlaşdırar.

Madam ki uca Allah səni araşdırmaq və xırdaçılığa getməklə mükəlləf etməyib, elə isə salamatçılığa görə Allaha həmd et, müsəlman qardaşların haqqında yaxşı zənn et və qovulmuş şeytandan Allaha sığın. **“Pis zənn etməklə insanlardan qorunun”,-** deyə rəvayət olunan hədisə gəldikdə isə bu, Peyğəmbərin صلى الله عليه وسلم adından deyilmiş

[71] “Əxbərul-Qudat”. Vəki.

[72] “Tabaqatul-Övliya”. İbn Muləqqin. səh. 267.

[73] “Rovdatul-Uqalə”. İbn Hibban . səh. 126.

bir yalandır. Əksinə, Əbu Davud İbn Məsuddan رضي الله عنه rəvayət edir ki, Peyğəmbər صلى الله عليه وسلم belə demişdir: **"Heç kim mənə heç kim barəsində danışmasın. Həqiqətən də, mən sizin yanınıza salamat bir qəlblə çıxmağı xoşlayıram"[74].** Möminə yaraşan da bax budur.

"Fitnəyə düşən (Allah qorusun) və insanların nöqsanlarını izləyərək araşdırıb-axtaran kəs isə başqasında çox az bir ehtimalla şərrə yozula biləcək bir əməl görərsə, sevincindən sanki göylərə uçar və onu yayar. Qoy həmin adam bilsin ki, kim qardaşının eyiblərini axtararsa, Allah da onun eyiblərini axtarar. Allah hər kimin eyiblərini axtararsa, onu evinin içində olsa belə, biabır edər"[75].

(Sonra şeyx) رحمه الله İbn Ömərin rəvayət etdiyi hədisə işarə edir (İbn Ömər dedi): "Peyğəmbər صلى الله عليه وسلم minbərə çıxdı və uca bir səslə çağırıb belə dedi: **"Ey dili ilə müsəlman olub, qəlblərinə imanın daxil olmadığı kəslər. Müsəlmanlara əziyyət verməyin. Onların eyiblərini axtarmayın. Kim qardaşının eyiblərini axtararsa, Allah da onun eyiblərini axtarar. Allah kimin eyiblərini axtarsa, hətta evinin içində olsa belə, onu biabır edər".** Bir gün İbn Ömər evə və ya Kəbəyə baxıb belə dedi: "*Sən necə də əzəmətlisən və sənin hörmətin necə də böyükdür. Möminin Allah qatında olan hörməti səndən də böyükdür*"[76].

---

[74] Sünən Əbi Davud. 4860; Sünən ət-Tirmizi. 4169. Ola bilsin ki, şeyx İbn Useymin (Allah ona rəhmət etsin) bu hədisin isnadında məchul bir şəxs olmasına baxmayaraq, bu hədisi sabit hesab edir. Bu hədisi ət-Tirmizi zəif hesab etmiş, Albani də bu iki qeyd olunan mənbələri incələyərkən ona müvafiq olmuşdur. Mən onun "ola bilsin ki, o fəzilətli əməllər haqqında olan hədisləri rəvayət etməkdə güzəştə getdiyini" demirəm. Çünki, şeyx Albani "Beyquniyyə" mənzuməsinin şərhində zəif hədisi tanıdarkən bu fikirdə olmadığını vurğulamışdır.

[75] "Şərhul-Mumti". İbn Useymin. 5/300.

[76] Tirmizi rəvayət edib. 2032, əl-Albani səhihləşdirib. Həmçinin Əbu Davud Əbu Bərzənin hədisini rəvayət edib. 4880.

İbnul Qeyyim رحمه الله "İləmul Muvaqqiin" kitabında belə demişdir: "Əgər elm əhlindən olan, dəlil istəyib onunla hökm verən, necə, harda və kiminlə olursa olsun, haqqa tabe olan bir kişi ilə yoldaşlıq etməyə nail olsan, bununla da təklik yoxa çıxar, ünsiyyət yaranar. Əgər o sənə müxalif olsa belə, sənə bir üzr tapar. Cahil və zalım olan kəs isə heç bir dəlil olmadan sənə qarşı çıxar, heç bir dəlil-sübut olmadan səni təkfir edər və ya bidətçi sayar. Sənin günahın isə onun təhlükəli yolundan və məzəmmətli həyatından üz çevirməyindir. Bu növdən olan insanların çox olmasına aldanma! Həqiqətən də, minlərlə bu növdən olan insan elm əhlindən olan bircə nəfərə bərabər bilməzlər. Bircə elm əhli isə yer dolusu bu növ insanlara bərabərdir"[77].

## 3 - İnsanlara qarşı şübhəli yanaşmağı tərk etmək.

Şəriətimiz bu cür məzəmmət edilmiş əxlaqlardan uzaq olmaq üçün – saydıqlarımıza əlavə olaraq - müxtəlif ehtiyat tədbirləri gətirmişdir. Buna misallardan biri də Buxarinin رحمه الله "Ədəbul Mufrad" kitabında Müaviyədən رضي الله عنه rəvayət etdiyi və Albaninin səhih hesab etdiyi hədisdir: "O demişdir: "*Peyğəmbərdən* صلى الله عليه وسلم *elə bir kəlmə eşitdim ki, Allah məni onunla faydalandırdı. Onun belə dediyini eşitdim:* **"Sən insanlara qarşı şübhəli yanaşsan, onları fəsada salarsan. Mən də insanlara qarşı şübhəli yanaşmıram və onları korlamıram"[78].**

Müaviyə رضي الله عنه bu peyğəmbəranə üslubu öz rəiyyətinə tətbiq edərək qırx illik hakimiyyəti boyunca

[77] "İləmul-Muvaqqiin". İbn Qeyyim. 3/392.
[78] "Ədəbul-Mufrad". Buxari. 248; Sahih Ədəbul-Mufrad. 186.

onların sevgisini qazanmışdı. Əbu Dərdanın رضي الله عنه da dediyi kimi: "Allah-təala Müaviyəni Allahın elçisindən صلى الله عليه وسلم eşitdiyi bir kəlmə ilə faydalandırdı". (Əbu Davud rəvayət edib. 4888; Albani "səhih" hesab edib".

Həmçinin Peyğəmbərin صلى الله عليه وسلم səfərdən evinə qayıdan kimsəyə ev əhlinin xəyanət edib-etməməsini aşkar etmək məqsədilə gecə vaxtı evinə qayıtmasını qadağan etməsi də bu mənaya daxildir.

"Səhih Müslim" kitabında Cabirdən رضي الله عنه belə rəvayət olunur ki, o belə dedi: **"Peyğəmbər صلى الله عليه وسلم bir kişinin öz ev əhlinin xəyanətini və nöqsanlarını araşdırmaq üçün gecə yarısı qapını döyməsini qadağan etdi"**[79]. Bu hərəkət yalnız pis zənni aradan qaldırmaq üçündür. Ola bilsin ki, onun bu əməli ev əhlinin də ona qarşı pis zənn etməsinə gətirib çıxara bilər. Beləcə, ev əhli şübhə və zənlərin atəşi içində qalmış olar.

Sələflərin istifadə etdikləri ehtiyat tədbirlərindən biri də Buxarinin "Ədəbul Mufrad" kitabında Albaninin "səhih" hesab etdiyi rəvayətdə Salmanın رضي الله عنه bu kəlamıdır: **"Mən xidmətçimin pis zənnə qapılmaması üçün yeməkdəki "uraq" tikələri sayıram"**[80]. "Uraq" العُراق kəlməsi "arq" عَرْق kəlməsinin cəmidir. əl-Əzhəri "Təhzibul-Lüğət" kitabında demişdir: "*Uraq o sümüklərdir ki, onun üzərindən ətin çox hissəsi götürülüb, incə və yaxşı hissələri qalıb. Sonra sümüklər sındırılır və bişirilir. O sümüklərdə olan ətlər xüsusi və ən yaxşı ətlər hesab edilir".*

Bunun mənası odur ki, o öz evində qalan əşyaları xidmətçisinin önündə sayır. Beləcə, xidmətçi bilir ki, ev əhli tərəfindən hər şey sayılıbdır və bununla da onun ağlına

---

[79] Səhihi Müslim. 5078.

[80] "Ədəbul-Mufrad". Muhəmməd ibn İsmail əl-Buxari. 168. Sahih Ədəbul-Mufrad. Albani. 125.

nəyisə oğurlamaq fikri gəlmir. Bu ona görədir ki, əgər evdən bir şey itərsə, ev sahibi qulluqçu haqqında pis zənn etməsin. Həmçinin Buxarinin رحمه الله Əbu Aliyədən rəvayət etdiyi, Albaninin "səhih" hesab etdiyi rəvayət də eyni mənadadır: "*Bizə əmr olunurdu ki, saymağı, çəkməyi və möhür vurmağı xidmətçilərin yanında edək. Ona görə ki, onlar pis əxlaqa öyrəşməsinlər və biz onlar haqqında pis zənn etməyək*"[81].

## 4 - Düşmənə qarşı ədalətli olmağa çalışmaq.

İnsanlar demək olar ki, öz düşmənləri haqqında eşitdikləri xəbərlərin böyük əksəriyyətini diqqətsiz şəkildə qarşılayırlar. Xüsusən də, əgər bu xəbərlər düşmənlərin naqislikləri və onlar haqqında edilən tənqidlər mövzusu olarsa, bu zaman onların nəfsləri insafdan kənarlaşacaq qədər zəifləyər.

Əgər xəbərləri tələsərək nəql edən, elmsizcəsinə və qeyri-obyektiv şəkildə şayiə yayan insan özünün pis əməllərindən birini hər hansı bir şəxsin araşdırmadan yaydığını eşidərsə, dərhal onu inkar etməyə, ondan dəlil-sübut tələb etməyə və onu ağılsızlıqda ittiham etməyə tələsər. Necə ki, o insanların onun haqqında dəlilsiz-sübutsuz pis zənn etmələrini istəmir, onda qoy özü də başqası haqqında yalnız araşdırdıqdan və dəqiqləşdirdikdən sonra qəlbinə bir şəxs haqqında pis məlumatı yükləsin. Peyğəmbərin صلى الله عليه وسلم buyurduğu kimi: **"Kim cəhənnəmdən uzaqlaşdırılıb cənnətə daxil edilməsini istəyirsə, qoy əcəlinin yetişdiyi zaman Allaha və axirət gününə iman üzərində olsun. Həmçinin özü ilə necə**

[81] "Ədəbul-Mufrad". Muhəmməd ibn İsmayıl əl-Buxari. 167; Sahih Ədəbul-Mufrad. Albani. 124.

**davranılmasını xoşlayırsa, başqaları ilə də o cür davransın”**[82].

Bu bir çox insanların əxlaqi səviyyəsidir: *haqsız* və *zənnə əsaslanan hökmvermə.* Əgər onlardan biri öz danışdıqlarını əməlindən saysaydı və Rəbbi önündə duracağı gün onun əməllərinin özünə göstəriləcəyindən əmin olsaydı, zənn etməklə insanların irzlərinə hücum etməzdi.

İbnul-Muqri “Əl-Mucəm” kitabında[83] Süfyan əs-Sövrinin رحمه الله belə dediyini rəvayət edir: “Ömər ibn Əbdül-Əziz gəldiyi zaman Şam əhlinə iki kəlmə yazdı: “*Kim sözünün əməlindən olduğunu bilərsə, ona fayda verəni istisna olmaqla, danışığını azaldar. Kim ölümü xatırlamağı çoxaldarsa, dünyadan az olanı ilə kifayətlənər. Bu qədər...”.*

Lakin dindarlığın və axirət gününə imanın zəif olması elmin az olması ilə birlikdə peşmançılığın fayda vermədiyi bir gündə peşmançılığa gətirib çıxarır. İnsanlara böhtan və ittihamlar atmaq asandır, lakin qiyamət günü buna sübut gətirmək çətindir. Özü də necə çətindir!? Qiyamət günü təkrarlamağa cürət etməyəcəyin hər töhməti bu gün tərk et. Bu sənin üçün daha salamat olanıdır. Allah kömək olsun!

---

[82] Səhihi Müslim. 1844.

[83] Səh – 161

# Qeydlər

# Qeydlər

……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………
……………………………………………………………………………………

## Kitabın İçindəkilər

Tərcüməçinin müqəddiməsi................................................3
Müəllifin müqəddiməsi......................................................5
Yaxşı və pis zənn............................................................11
Xəbərləri dəqiqləşdirmək..................................................16
Pis zənnə düşməyin səbəbləri............................................37
Pis zənnin əlacı................................................................44
Qeydlər...........................................................................58
Kitabın içindəkilər............................................................60

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:
Sahibfarmanoglu@gmail.com

**Kitabın adı:** İnsanlar haqqında yaxşı zəndə olmaq.
**Redaktədən sonrakı tarix:** 11.04.2024.
**Kitabın səhifələrinin sayı:** 60.
**Kitabın kağız ölçüsü:** A5  21 × 14.8
**Müəllif:** Əbdül-Məlik Ramazani.
**Tərcüməçi:** Sahib Fərman oğlu Əsədov.
**Redaktor:** Sərvər Ağayev.
**Korrektor:** Ülkər Qurbanova.

# MÖHTƏRƏM OXUCU!

OXUDUĞUNUZ KİTAB MÜƏLLİFİN ƏN DƏYƏRLİ, SEÇİLƏN KİTABLARINDAN BİRİDİR. MÜƏLLİF BU KİTABDA GÖZƏL ZƏNN VƏ PİS ZƏNN HAQQINDA DANIŞMIŞ, PİS ZƏNNİN SƏBƏBLƏRİNƏ TOXUNMUŞ, İSLAM QARDAŞLIĞINI DARMADAĞIN EDƏN PİS ZƏNN ƏXLAQININ MƏNFİ TƏSİRLƏRİNİ QEYD ETMİŞ, SONDA İSƏ PİS ZƏNNİN MÜALİCƏSİNİ VERMİŞDİR.

MÜƏLLİF KİTABIN ƏVVƏLLƏRİNDƏ PİS ZƏNNƏ MİSALLAR ÇƏKİR, HƏMİN MİSALLAR ÜZƏRİNDƏN GÖZƏL ZƏNN EDƏ BİLƏCƏYİ HALDA BUNU ETMƏYƏNLƏRƏ ƏSLİNDƏ NECƏ ETMƏLƏRİ GƏRƏKDİYİNİ ÖYRƏDİR VƏ HƏQİQİ ÇIXIŞ YOLUNU GÖSTƏRİR.

*YAZDI: SAHİB ƏSƏDOV*

İSLAMIN MÜDAFİƏSİ

t.me/selefinexlaqi

f/b islamin mudafiesi